Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 112 (8135) CÜMƏ AXŞAMI, 23 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## İlham Əliyevin sənayeləşmə siyasəti real nəticələr verir



Məlum olduğu kimi, son dövrlər ölkədə aparılan iqtisadi islahatların əsas məqsədi qeyri-neft sektorunun, xüsusilə qeyri-neft sənayesinin inkişafına nail olmaqdır. Sənaye müəssisələrinin yaradılması da həmin məqsəddən irəli gəlir. Bu həm də sənaye müəssisələrinin istehsal təyinatının və coğrafiyasının ildən-ilə genişlənməsi deməkdir.

### Təkcə cari ilin 4 ayında sənayenin qeyri-neft sektorunda 15 faizdən çox artım qeydə alınıb



Ölkədə hazırda 5 sənaye parkı fəaliyyət göstərir. Bu parklardakı müəssisələr kimya, təkrar emal, yüngül sənaye, gəmiqayırma, əczaçılıq sahələri üzrə ixtisaslaşıb. Yəni həmin növ məhsullara daxili tələbat yerli istehsal hesabına təmin olunur, ixracdan asılılıq azalır, üstəlik, ixrac edilərək ölkəyə valyuta gətirilir. Sənaye parklarının fəaliyyətə başlaması məşğulluq probleminin həllinə də töhfə verir. Hazırda fəaliyyət göstərən həmin müəssisələrdə 9 min nəfər işlə təmin olunub.

Sənayeləşmənin həyata keçirilməsində digər forma sənaye məhəllələrinin yaradılmasıdır. Sənaye parkları ilə yanaşı, sənaye məhəllələrinin də fəaliyyətə başlaması həm yerli istehsalı artırır, həm də əhalinin məşğulluğunun təmin edilməsinə imkan yaradır. Hazırda Neftçala, Masallı və Sabirabadda sənaye məhəllələri fəaliyyət göstərir. Hacıqabul Sənaye Məhəlləsində isə geniş tikinti işləri aparılır və onun yaxın vaxtlarda fəaliyyətə başlaması gözlənilir.

Həyata keçirilən sənayeləşmə siyasətinin konsepsiyası elmi əsaslarla hazırlanır. Əvvəlcədən hesablanır ki, hansı müəssisə harada yaradılacaq və xammal kimi hansı məhsuldan istifadə ediləcək.

Ardı 6-cı səh.

## Bakı dünyanın ən gözəl şəhərlərindən biridir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 22-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin qarşısındakı yeni bağın və Füzuli küçəsi boyunca salınan Mərkəzi Parkın açılışında iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, dövlət başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyevin birbaşa göstərişlərinə uyğun olaraq Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən keçmiş "Sovetski" adlanan ərazidə abadlıq və yenidənqurma işlərinə 2013-cü ilin noyabr ayında start verilib və işlər mərhələlərlə icra olunmaqdadır.

Dövlət başçısı və birinci xanım buradan paytaxtın mənzərəsini seyr etdilər.

Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Layihənin əsas məqsədi şəhərin simasını daha da gözəlləşdirmək, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət etməkdir.

Dövlət başçısına Hüseyn Cavid parkı - Nərimanov prospekti ilə bağlantı yolu və Cavanşir yol ötürücüsünün yerində inşa olunacaq yeni eyni səviyyəli yol qovşağının tikintisi layihəsi barədə də məlumat verildi.

Mərkəzi Parkın ərazisində 2 kafe də fəaliyyət göstərəcək. Bu istirahət məkanında insanların rahat hərəkətini təmin etmək məqsədilə yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib.

Ardı 2-ci səh.



## "İlham Əliyev bizə yeni həyat verdi"

### Şamaxıda zəlzələdən evi qəzalı vəziyyətə düşmüş 32 ailə Prezidentin göstərişi ilə yenidən tikilən tam təmirli mənzillərə köçməyə hazırlaşır

Zəlzələ bölgəsindən reportaj



Şimal bölgəsində baş verən təbii fəlakətdən 3 aydan artıq vaxt keçir. Fevralın 5-də baş vermiş 5,3 ballıq zəlzələnin fəsadlarının aradan qaldırılması istiqamətində zərərçəkmiş rayonlarda - Şamaxı, Ağsu və İsmayıllıda tikinti-quruculuq işləri davam etdirilir.

Prezident İlham Əliyevin göstərişinə əsasən, evləri qəzalı durumda olan sakinlər üçün yeni mənzillər tikilir. Şamaxı rayonunda isə fərdi evlərlə yanaşı, sürüşmə zonasında yerləşən və bərpası mümkün olmayan mənzillərin sakinləri üçün rayon mərkəzində yeni 4 mərtəbəli yaşayış binası tikilir. Hazırda Fövqəladə Hallar Nazirliyinin xüsusi komissiyası tərəfindən hər 3 rayonda tikinti-quruculuq işləri aparılır. Görülən işlərin gedişatı ilə maraqlanmaq üçün üz tutduğumuz Şamaxı rayonunda da tikinti bumunun şahidi olduq.

FHN-nin xüsusi komissiyasının rəhbəri Kamran Əliyevlə söhbətimiz zamanı bəlli olur ki, hazırda rayonda 286 qəzalı mənzil var və həmin mənzillərin sökülməsi ilə bağlı qərar verilib. Ancaq kənd və qəsəbələrdən müraciətlər hələ də daxil olmaqdadır.

Kamran Əliyevin sözlərinə görə, komissiyaya Şamaxı üzrə 5695 müraciət daxil olub və bu müraciətlər əsasında 5684 mənzilə baxış keçirilib. Müəyyən edilib ki, Şamaxıda 110-u şəhər, 176-sı kənd və qəsəbələr olmaqla 286 qəzalı mənzil və ya ev mövcuddur. 1295 mənzilin isə bərpasına və gücləndirilməsinə ehtiyac var.

Ardı 5-ci səh.

## Ölkə iqtisadiyyatının qan damarı

### Azərbaycan dəmiryol infrastrukturunun yenidən qurulması davam edir

Azərbaycanda beynəlxalq və yerli əhəmiyyətli yol infrastrukturu layihələrinin icrası uğurla davam edir. Xüsusilə ölkəmizin dünya ilə birləşməsinə imkan yaradan dəmiryol xətlərinin çəkilişinə böyük önəm verilir.

Asiya ilə Avropanı birləşdirən və ölkəmizdən keçən İpək yolu nəqliyyat dəhlizinin əhəmiyyəti getdikcə daha çox strateji xarakter daşıyır. Ölkə iqtisadiyyatı üçün strateji xarakter daşıyan həm də yerli əhəmiyyətli dəmiryol infrastrukturudur.

Ardı 5-ci səh.

## Ermənistan yeni vətəndaş müharibəsi astanasındadır

### İşğalçı ölkədə repressiya maşını işə düşür

Ermənistanda baş verən son hadisələr bu ölkədə siyasi müstəvidə yeni qarşıdurmaların başlandığını göstərir. Belə görünür ki, Ermənistan hakimiyyətinin bütün qolları üzərində mövcud hakimiyyətin nəzarəti ələ almaq niyyəti ciddi müqavimətlə qarşılanacaq.

Xatırladaq ki, vəziyyətin gərginləşməsinə səbəb mayın 18-də Ermənistanın keçmiş prezidenti Robert Koçaryan barəsində həbs qətimkan tədbirinin ləğv edilməsi olub. O, zaminə buraxıldıqdan sonra baş nazir Nikol Paşinyanın çağırışı ilə Ermənistan üzrə bütün məhkəmələr bir neçə saat blokadada saxlanılıb. Artıq proses erməni cəmiyyətində qarşıdurmanın dərinləşdiyini göstərir.

Ardı 7-ci səh.

## Qafqazın dan ulduzu

### Azərbaycan regionda sülhün təminatçısı kimi çıxış edir

Azərbaycanın bölgədə və dünyada sülhün qorunması istiqamətindəki atdığı addımlar, dəstək verdiyi nəhəng layihələr, evsahibliyi etdiyi beynəlxalq tədbirlər göz qarşısındadır. Bütün bu tədbirlərin hamısı Azərbaycanın dövlət siyasətinin sülhə, əmin-amanlığa xidmət göstərdiyini sübut edən ciddi faktorlardır.



Ölkəmizin inamla reallaşdırdığı sülh siyasəti ən mürəkkəb, mübahisə doğuran məsələlərin diplomatik danışıqlar yolu ilə həllinə rəvac verir, Prezident İlham Əliyev fəaliyyətində Qafqazda və dünyada sülhün, sabitliyin qorunmasını əsas tutur, şimal və cənub qonşuları arasında münasibətlərin sülh məcrasında inkişaf etməsi üçün əlindən gələni əsirgəmir, vacib hallarda vasitəçilik missiyasını nümayiş etdirir. İlham Əliyevin diplomatik gedişləri, siyasi danışıqları sülh məcrasına yönəltmək bacarığı son 15 ildə ölkəmizin beynəlxalq aləmdə nüfuzunu birəon artırmışdır. Bu gün Azərbaycan Qafqazın sülhsevər ölkəsi kimi adını dünyanın siyasi xəritəsinə yazdıra bilmiş, Qafqazın dan ulduzuna çevrilmişdir.

Azərbaycan ən gərgin və uzun illər dalana dirənən məsələlərin həllində sadə və hamını qane edən diplomatik gedişlər etmək qüdrətinə malikdir. Buna nümunə kimi Xəzərin statusunun həllini götürək. Dövlət başçısının müdrik və uzaqgörən siyasəti, diplomatik məharəti onilliklər boyu davam edən qarşılıqlı iddiaların və anlaşılmazlıqların dalanından qurtulmağa imkan verdi, Xəzəryanı dövlətlərin diplomatik münasibətlərinə canlanma gətirdi və həlli tapılmayan bütün məsələlərin hamını qane edən məcraya yönəlməsində məxsusi rolunu oynadı.

Bədnam və işğalçı qonşumuz isə iki dəniz arasında "böyük Ermənistan" yaratmaq mərəzinə tutulmuşdur. Erməni millətçilərinin bir neçə əsrlik fəaliyyəti bu mərəzin xroniki olduğunu təsdiq edir. Ermənistan Qafqazda "demokratik dövlət" adı altında nasizmin təbliği və qonşularının ərazilərinə iddialarla yaşayırsa, Azərbaycan sülh ənənələrinə sadiqdir. Paşinyanın "demokrat" kimi hakimiyyətə gəlib işğal edilmiş ərazilərdə yallı getməsi, yəni demokratdan daha çox sırf nasist kimi çıxış etməsi erməni ideologiyasının işğala sadiq qalmaq və ərazi ambisiyalarını davam etməyə maraqlı olduğunu ortaya qoymuşdur.

Ardı 5-ci səh.

# Bakı dünyanın ən gözəl şəhərlərindən biridir





















*Əvvəli 1-ci səh.*

Bu keçidlər əsasən avtomobillərin intensiv hərəkət etdiyi Nəriman Nərimanov, Mirzəağa Əliyev və Abdulla Şaiq küçələrinin kəsişmələrində inşa olunub. Ərazidə bütün yaş qruplarından olan insanlar üçün 7 istirahət və oyun meydançası yaradılıb.

Ərazidə böyüklər üçün şahmat, nərd və idman qurğuları, balacalar üçün yelləncəklər, futbol meydançası salınıb.

Görülən işlər çərçivəsində Təzəpir məscidinin qarşısındakı bağdan məscidə əlavə giriş imkanı da olacaq. Həmçinin Füzuli meydanı ətrafındakı ərazi yenidən qurulub, burada əhalinin təhlükəsiz hərəkəti üçün piyada keçidinə yeni giriş yaradılıb. Parkın ərazisində ümumilikdə 9 fəvvarə tikilib. İstirahət parkında müasir işıqlandırma sistemi və infrastrukturun bir mərkəzdən idarə olunması üçün təhlükəsizlik kameraları quraşdırılıb.



Ərazisi 20 hektar olan parkın 14 hektarında yaşıllıq salınıb. Burada 2100-dən çox 19 növ ağac və 137 mindən artıq gül və kol bitkiləri əkilib. Parkın yaşıllaşdırma işləri aparılarkən flora və iqlim mühiti təhlil edilərək əraziyə uyğun bitki və ağaclara üstünlük verilib. Mərkəzi Parkın yaşıllaşdırma konsepsiyasında ilin bütün fəsilləri nəzərə alınıb. Parkda yaşıllıqları suvarmaq üçün müasir sistemlərə uyğun olaraq 6,5 kilometrdən çox sahədə damcılama üsulu tətbiq edilib. Bundan başqa, Mərkəzi Parkın ərazisində drenaj xətlər də çəkilib. Ümumilikdə Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının "ağciyəri" hesab olunan yeni yaşıllıq zolağı salınmaqla Prezident İlham Əliyevin "Bakı şəhərinin Yasamal rayonu ərazisində Füzuli meydanının ətrafındakı yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq işlərinin aparılması ilə bağlı bəzi tədbirlər haqqında" 2016-cı il 4 avqust tarixli, "Təzəpir məscidi kompleksinin ətraf ərazisinin abadlaşdırılması ilə əlaqədar tədbirlər haqqında" 2016-cı il 5 avqust tarixli sərəncamlarının icrası olaraq, "Təzəpir məscidi kompleksini ziyarət edənlər üçün parklama imkanlarının yaradılması işləri" layihəsinin II mərhələsi tam yekunlaşdırılıb, vətəndaşlarımızın istirahəti və dincəlməsi üçün istifadəyə verilib.

Ərazinin abadlaşdırılması zamanı burada XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakıya Şollar su kəmərinin çəkilişi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilən və yerli sakinlər arasında "Qüllə" kimi tanınan su qüllələri və quyuları aşkarlanaraq bərpa edilib. Həmin su quyularından bu istirahət məkanında aparılan suvarma işlərində istifadə olunur.

Parkın ərazisində Mirzəağa Əliyev küçəsi və Təzəpir məscidi arasında müasir standartlara cavab verən 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib. Dayanacaq təbii havalandırma, müasir işıqlandırma, təhlükəsizlik kameraları ilə təchiz edilib.

Son illərdə Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Bu işlər paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi ilə müşayiət olunur. Bütün bunlar Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. Bunu istər paytaxt sakinləri, istərsə də şəhərimizin qonaqları dəfələrlə vurğulayırlar. Yeni park, istirahət məkanı və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması bu məsələdə mühüm rola malikdir. Yeni salınan bu park da Bakının simasının daha da gözəlləşməsi baxımından mühüm rol oynayır.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıqlarını verdi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli abidəsinin önündə sakinlərlə görüşüb söhbət etdilər.

Dövlət başçısı və xanımı vətəndaşların problemləri ilə tanış oldular. Bildirildi ki, sakinlərin müraciət etdiyi problemlərlə bağlı məsələlər yaxın zamanda operativ şəkildə həll olunacaq.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına Çin Xalq Respublikasının Hökuməti və xalqı adından, şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı bildirirəm.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 28 il ərzində davamlı iqtisadi inkişaf yolu ilə irəliləyir, xalq sülh və rifah içində yaşayır, ölkənizin beynəlxalq statusu və nüfuzu daimi artır. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Bu yaxınlarda II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu çərçivəsində biz Sizinlə əhəmiyyətli görüş keçirdik və bir sıra razılıqlar əldə etdik. Ölkələrimizin və xalqlarımızın rifahı naminə ikitərəfli münasibətlərin və bütün sahələrdə əməkdaşlığın daha yeni pilləyə yüksəlməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə möhkəm cansağlığı və bütün işlərinizdə uğurlar diləyirəm.

Dost Azərbaycana inkişaf və rifah, onun xalqına xoşbəxtlik arzulayıram.

*Dərin hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

---

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Milli bayramınız - Respublika Günü münasibətilə zati-alinizə və Sizin şəxsinizdə bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Dost və qardaş Azərbaycanın müstəqilliyini bərpa etməsindən bugünə qədər keçən müddət ərzində bütün sahələrdə qazandığı böyük uğurlar Türkiyə üçün də qürur mənbəyidir. Uzaqgörən liderliyiniz sayəsində Azərbaycanın bu nailiyyətlərinin artaraq davam edəcəyinə inamımız qətidir.

"Bir millət, iki dövlət" şüarı ilə genişlənən strateji münasibətlərimizin daha da güclənməsi istiqamətində qətiyyətli olduğumuzu bir daha vurğulamaq istəyirəm. Qarşıdakı dövrdə də sıx əməkdaşlığımızın regionumuzda və regionumuzdan kənarda sülh, rifah və sabitliyə mühüm töhfə verəcəyinə səmimi-qəlbdən inanıram.

Fürsətdən istifadə edərək zati-alinizə cansağlığı və xoşbəxtlik, dost və qardaş Azərbaycan xalqına əmin-amanlıq və rifah diləklərimi bir daha ifadə edirəm.

*Hörmətlə,*

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və dost Azərbaycanın bütün xalqını təbrik etməkdən böyük məmnunluq duyuram.

Azərbaycan Respublikası ilə dövlətlərarası münasibətlər Tacikistan Respublikasının xarici siyasi fəaliyyətində mühüm yer tutur.

Biz ölkələrimiz arasında son illərdə dinamik inkişaf edən və dərinləşən çoxşaxəli qarşılıqlı əlaqələrin indiki səviyyəsini yüksək qiymətləndiririk.

Əmin olduğumu bildirirəm ki, tərəflərin ali səviyyədə son danışıqları və görüşləri çərçivəsində əldə edilmiş razılaşmaların ardıcıl olaraq birlikdə reallaşdırılması əməkdaşlığın bütün sahələrində münasibətlərimizi keyfiyyətcə yeni səviyyəyə çatdıracaq.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edib Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə yeni zəfərlər, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzularımı bildirmək istəyirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Qırğızıstan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Qırğızıstan qardaş Azərbaycan ilə dostluq münasibətlərini yüksək qiymətləndirir, qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.

Əminəm ki, Qırğızıstan-Azərbaycan münasibətləri bundan sonra da möhkəmlənəcək, ölkələrimizin və xalqlarımızın rifahının yaxşılaşmasına şərait yaradacaq.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və firavanlıq, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

*Hörmətlə,*

***Sooronbay JEENBEKOV,***
***Qırğız Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Qardaş ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə Əlcəzair dövləti, hökuməti və xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram. Mən Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə bundan sonra da sülh, sabitlik, tərəqqi və firavanlıq şəraitində yaşamağı arzu edirəm.

Cari ildə bu əlamətdar günün qeyd olunması həm də ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə təsadüf edir. Bu münasibətlər ölkələrimiz arasında əməkdaşlığa və qarşılıqlı etimada əsaslanan ikitərəfli əlaqələrin, eləcə də hər iki ölkə üçün maraq doğuran məsələlərlə bağlı həm beynəlxalq, həm də regional forumlarda səmərəli əməkdaşlığın inkişafına təkan vermiş və xalqlarımız arasındakı tarixi münasibətlər daha da möhkəmlənmişdir.

Mən bu xoş fürsətdən istifadə edərək Əlcəzair və Azərbaycan dövlətləri arasında mövcud olan qardaşlıq və əməkdaşlıq münasibətlərini möhkəmləndirmək, eləcə də bu münasibətləri qardaş xalqlarımızın ortaq maraqları naminə ən yüksək səviyyələrə qaldırmaq istiqamətində birgə səylərimizi davam etdirməyi qətiyyətlə dəstəklədiyimi bildirirəm.

Sizə bir daha ən səmimi təbriklərimi çatdırıram.

Zati-aliləri, icazə verin Sizə ən yüksək ehtiramımı bildirim.

*Dərin hörmətlə,*

***Əbdülqadir bin SALEH,***
***Əlcəzair Xalq Demokratik Respublikasının***
***Prezidenti vəzifəsini icra edən***

# Azərbaycan təbii qazını Bolqarıstana çatdıracaq Yunanıstan-Bolqarıstan İnterkonnektorunun inşasına başlanılıb

## Təməlqoyma mərasimində Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov da iştirak edib





Mayın 22-də Bolqarıstanın Kirkovo bölgəsində Azərbaycan təbii qazını bu ölkəyə nəql edəcək Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (Interconnector Greece-Bulgaria (IGB) təməlqoyma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubovla yanaşı, Bolqarıstanın Baş naziri Boyko Borisov, Yunanıstan Baş naziri Aleksis Tsipras, hər iki ölkənin enerji nazirləri, Avropa Komissiyası və Avropa İnvestisiya Bankının (EIB) yüksəksəviyyəli rəsmiləri, eləcə də müxtəlif ölkələrdən 150-dən çox qonaq iştirak edib.

Baş nazirin birinci müavini Yaqub Eyyubov Azərbaycan, Bolqarıstan və Yunanıstanın təkcə enerji sektorunda deyil, digər sahələrdə də uğurlu və davamlı əməkdaşlığının vacibliyini vurğulayıb.

Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ünvanladığı videomüraciətdə deyib: "IGB-nin həyata keçirilməsi bölgənin qaz təchizatı təhlükəsizliyini artıracaq və Avropanın enerji infrastrukturuna töhfə verəcək".

Mərasimdə bildirilib ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru digər mühüm layihələrin - "Cənub qaz dəhlizi", TANAP və TAP-ın birləşdirici funksiyasını daşımaqla geniş enerji strategiyası və Avropanın prioritetlərini müəyyən edir.

Yunanıstan-Bolqarıstan İnterkonnektorunun operatoru olan "ICGB AD" şirkəti boru kəmərinin inşasını həyata keçirəcək.

Xatırladaq ki, 2013-cü ilin sentyabrında "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı 25 illik saziş imzalayıb. Azərbaycan təbii qazı "Transadriatik" (TAP) qaz boru kəməri ilə 2020-ci ildə Avropaya çatdırılacaq. Həmin il Yunanıstan-Bolqarıstan qaz şəbəkələrinin bir-biri ilə əlaqələndirilməsi planlaşdırılır. Bolqarıstan interkonnektor ilə 2020-ci ildən etibarən ildə 1 milyard kubmetr Azərbaycan qazı alacaq. Azərbaycan qazı Bolqarıstanın istehlakının dörddəbir hissəsini ödəyəcək.

IGB layihəsinin dəyəri təxminən 220 milyon avro qiymətləndirilir. Boru kəməri Şimal-Şərqi Yunanıstanın Komotini və Bolqarıstanın cənubundakı Stara Zagora bölgələrini bir-birinə birləşdirəcək. IGB qaz boru kəmərinin Komoti və Stara Zagorada çıxış nöqtəsi olacaq, Yunanıstan və Bolqarıstan milli təbii qaz sistemləri arasında birbaşa əlaqə yaradılacaq. 182 kilometrlik IGB boru kəməri Yunanıstandan Bolqarıstana ildə təxminən 3 milyard kubmetr təbii qaz nəqli qabiliyyətinə malik olacaq və gələcək bazar tələbatına əsasən bu həcmin illik 5 milyard kubmetrə çatdırılması imkanı var.

# DİN-in fəaliyyətinin beynəlxalq standartlar səviyyəsində qurulması üçün ardıcıl addımlar atılır



Daxili İşlər Nazirliyinin (DİN) "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində respublikanın daxili işlər naziri, general-polkovnik Ramil Usubovun iştirakı ilə A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbin müəllim-komandir heyəti, növbəti tədris kursunun məzunları və xidmətə yeni qəbul olunmuş dinləyicilər ilə görüş keçirilib.

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən nazir R.Usubov Prezident İlham Əliyevin gənc kadrların hazırlanması və irəli çəkilməsi işinə hər zaman xüsusi önəm verdiyini, nitq və çıxışlarında bunun gələcəyimizi şərtləndirən mühüm amillərdən biri kimi vurğuladığını xatırladıb, tədbirin bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasətin növbəti təzahürü olduğunu vurğulayıb.

Nazir müstəqilliyin ilk illərində cərəyan edən gərgin ictimai-siyasi proseslər, ölkədə yaranmış vətəndaş qarşıdurması, Ermənistanın təcavüzü, partiya mənsubiyyətinə, şəxsi münasibətlərinə görə daxili işlər orqanlarına çoxsaylı təsadüfi, səriştəsiz insanların qəbul edilməsi, kriminogen durumun nəzarətdən çıxması barədə danışıb, xalqın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hüquq mühafizə fəaliyyəti ilə bağlı köklü hüquqi-demokratik islahatların həyata keçirildiyini, qanunvericilik bazasının yaradıldığını, cinayətkarlıqla qətiyyətli mübarizənin əsasının qoyulduğunu, sabitliyin bərqərar edildiyini diqqətə çatdırıb. General-polkovnik R.Usubov bildirib ki, bu siyasət hazırda Azərbaycan Prezidentinin rəhbərliyi ilə uğurla davam etdirilir, Daxili İşlər Nazirliyi sistemində də fəaliyyətin beynəlxalq standartlar səviyyəsində qurulması üçün ardıcıl, məqsədyönlü addımlar atılır.

Daxili işlər naziri gənc polis əməkdaşlarını təbrik edərək çətin və şərəfli peşələrində uğurlar arzulayıb, onlara daim üzərlərində işləmələrini, müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların qanunla qorunan hüquq və mənafelərinin keşiyində möhkəm dayanmalarını, peşəkar həmkarlarının təcrübəsindən bacarıqla yararlanmalarını tövsiyə edib.

# Vergilər Nazirliyi və Baş Prokurorluq birgə məlumat yayıb

## Vergilər Nazirliyinin Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi, korrupsiya və mənimsəmə hallarına qarşı mübarizənin aparılması ilə bağlı göstərişlərinə uyğun olaraq, bu sahədə yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanmış korrupsiya hüquqpozmalarına qarşı mübarizə çərçivəsində Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə tədbirlərin görülməsi davam etdirilir.

Vergilər Nazirliyinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, Vergilər Nazirliyindən bir sıra Ərazi Vergilər idarələrinin 2015-2018-ci illəri əhatə edən dövr üzrə fəaliyyətlərinin yoxlanılması zamanı aşkarlanan qanun pozuntularına dair Baş Prokurorluğa daxil olmuş materiallar Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Aparılmış araşdırmalarla 2 saylı Ərazi Vergilər Departamentinin İqtisadi təhlil və büdcə proqnozunun icrasına nəzarət şöbəsinin böyük dövlət vergi müfəttişi Mahir Əbdürrəhimovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Xızı və Siyəzən rayonları üzrə maliyyə şöbələrindən daxil olmuş vergi və dövlət rüsumlarından tam və ya qismən olmaqla, ümumilikdə 511 min manat azaldaraq, həmin məbləğləri ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə qeyd etməklə sonunculardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr yaranıb. Faktla bağlı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Bundan başqa, Ağdam Rayon Vergilər Şöbəsinin direktoru Valeh Qasımovun eyni qaydada rayon maliyyə idarəsindən daxil olmuş ödəniş sənədlərini (qəbzləri) saxtalaşdıraraq faktiki olaraq ödəniş olmadığı halda ayrı-ayrı vergi ödəyicilərinin şəxsi hesab vərəqələrinə ümumilikdə 412 min manat vəsait qeyd etməklə onlardan nağd şəkildə alıb mənimsəməsinə əsaslı şübhələr olduğundan material üzrə Cinayət Məcəlləsinin 179.3.2-ci və 308.2-ci maddələri ilə cinayət işi başlanıb.

Aparılmış araşdırmalarla, həmçinin 5 saylı Ərazi Vergilər İdarəsinin operativ vergi nəzarət şöbəsinin dövlət vergi müfəttişi Eldəniz Əzizov və həmin idarənin səyyar vergi yoxlamaları şöbəsinin böyük dövlət vergi müfəttişi Elnur Mənsimovun eyni qaydada müvafiq maliyyə idarələrindən daxil olmuş ödəniş sənədlərinin (qəbzlərin) işlənilməsi zamanı 38 min manat vəsaiti faktiki ödəniş təyinatından yayındırmaqla ayrı-ayrı vergi ödəyicilərindən nağd şəkildə alınmış və büdcəyə ödənilməmiş vəsait əvəzinə onların şəxsi hesab vərəqələrinə vergi ödənişi kimi qeydiyyatını aparmaqla vergi ödəyicilərindən vergi ödənişi kimi nağd şəkildə alınmış həmin məbləği mənimsəməsinə əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 179.2.3-cü, 179.2.4-cü və 308.1-ci maddələri ilə cinayət işi başlanıb.

Bununla yanaşı, 13 saylı Ərazi Vergilər İdarəsinin kiçik sahibkarlıqla iş şöbəsinin vergi öhdəliklərinin icrasına nəzarət bölməsinin baş dövlət vergi müfəttişi Ziya Paşayevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2017-2018-ci illərdə Qax Rayon Maliyyə İdarəsindən təhvil aldığı vergi və rüsumlarla bağlı 47 min manat dəyərində ödəniş qəbzlərini skan edərək oraya əvvəldən tanıdığı bəzi vergi ödəyicilərinin sadələşdirilmiş vergi kodu, ödəyicinin adı, VÖEN və vergi məbləği haqda yenidən qeydiyyat apararaq rəsmi sənədi saxtalaşdırmasına əsaslı şübhələr olduğundan faktla bağlı Cinayət Məcəlləsinin 308.2-ci və 313-cü maddələri ilə cinayət işi başlanıb.

Vergilər Nazirliyi üzrə əmrlərlə xidməti fəaliyyətlərinin icrası zamanı yol verdikləri qanunazidd əməllərə görə müvafiq Ərazi Vergilər idarələrinin dörd əməkdaşının vergi orqanlarında xidmətlərinə xitam verilib, dörd əməkdaş isə müvəqqəti olaraq tutduqları vəzifədən kənar ediliblər.

Hazırda cinayət işləri üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin olunması istiqamətində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Vergi sahəsində yol verilmiş qanun pozuntularının qarşısının alınması və aşkarlanan korrupsiya hüquqpozmalarına qarşı Vergilər Nazirliyi ilə Baş Prokurorluq tərəfindən birgə ciddi tədbirlərin görülməsi bundan sonra da davam etdiriləcək.

# ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır

ADA Universiteti və Rusiya Elmlər Akademiyası gənc alimlərin yetişdirilməsində əməkdaşlıq etməyi planlaşdırır.



Bu məsələ mayın 22-də xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru Hafiz Paşayevin Rusiya Elmlər Akademiyasının prezidenti, akademik Aleksandr Sergeyevlə görüşündə müzakirə edilib.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, tərəflər, xüsusilə informasiya texnologiyalarının və tətbiqi elmlərin inkişafı məqsədilə mübadilə proqramlarını nəzərdən keçirəcəklər.

Görüşdə qarşılıqlı maraq doğuran sahə kimi, həmçinin Xəzər hövzəsi üzrə elmi tədqiqatların aparılması müzakirə olunub. Akademik Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyəti ADA Universitetində olarkən tədris mərkəzi ilə də tanış olub. Qonaqlara universitetin tələbə və müəllim heyəti, burada yaradılan beynəlmiləl mühit və Rusiyanın bir neçə aparıcı universiteti daxil olmaqla, 70-ə yaxın xarici ali təhsil ocağı ilə qurulan elmi əməkdaşlıq barədə məlumat verilib. Akademik Aleksandr Sergeyev qarşıdan gələn "Məzun günü" münasibətilə universitet rəhbərliyini təbrik edib və ADA yetirmələrinə uğurlar arzulayıb.

# *Mətyu BRAYZƏ:* "Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir"

Gələn həftə - mayın 29-da Bakı UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" komandaları arasında keçiriləcək final oyununa evsahibliyi edəcək.

Hesab edirəm ki, bu, möhtəşəmdir. Bu oyun Bakının necə gözəl şəhər, həmçinin yaşamaq üçün möhtəşəm bir məkan olduğunu bütün avropalılara və dünyaya nümayiş etdirmək baxımından çox gözəl bir imkandır. Şəxsi təcrübəmdən bilirəm ki, vaxtilə ailəmlə birlikdə yaşadığım Bakı çox təhlükəsiz şəhərdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu Brayzə söyləyib.



"Təəssüf ki, "Arsenal" klubunun erməni əsilli oyunçusu Mxitaryan təhlükəsizlik məsələsini əsas gətirərək Bakıda keçiriləcək bu oyunda iştirak etməmək barədə qərar verib. Aydındır ki, bu, onun şəxsi seçimidir. Məncə, bu oyunda iştirak etməməsi onun futboldan qazanacağı puldan məhrum olmasına səbəb olacaq. Zənnimcə, bu, ağıllı seçim deyil. Onun Bakıda yarış zamanı futbol meydançasında özünün təhlükəsizliyi ilə bağlı narahat olması üçün heç bir səbəb görmürəm. Mən ermənilər tanıyıram ki, Azərbaycana rahat səfər ediblər. Amma bu, hər halda futbolçunun şəxsi qərarıdır. Ümid edirəm ki, bu, oyunun möhtəşəm keçməsinə, eləcə də xarici qonaqların Bakının gözəlliyindən həzz almalarına mane olmayacaq. Düşünürəm ki, həm bu oyunun, həm də Bakının gözəlliyinin nümayiş etdirilməsinin siyasətlə heç bir əlaqəsi yoxdur", - deyə M.Brayzə vurğulayıb.

# Müdafiə naziri düşmənin təxribat cəhdlərinin qarşısının alınması barədə tapşırıq verib





Silahlı Qüvvələrin genişmiqyaslı əməliyyat-taktiki təlimləri çərçivəsində cəbhəboyu zonada olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti müxtəlif istiqamətlərdə ön xətt bölmələrində olublar.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Zakir Həsənov bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, Ermənistan silahlı qüvvələrinin üzbəüz yerləşən mövqelərini müşahidə edib. Nazir əldə olunan məlumatlara əsasən, düşmənin törədə biləcək təxribat cəhdlərinin qarşısının bütün atəş vasitələrinin tətbiqi ilə dərhal alınması barədə müvafiq tapşırıqlar verib.

# Müdafiə naziri təlimlərdəki vəziyyətə dair məruzələri dinləyib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrinin iştirakı ilə keçirilən genişmiqyaslı əməliyyat-taktiki təlimləri davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, genişmiqyaslı əməliyyat-taktiki təlimlərinə rəhbərlik edən general-polkovnik Zakir Həsənov qoşun növlərinin komandanları, birlik komandirləri və müvafiq vəzifəli şəxslərin ümumqoşun əməliyyatlarının aparılması zamanı fəaliyyətlərin təşkili üzrə qəbul edilən qərarlara dair məruzələri dinləyib. Nazir qoşunların idarə olunması üzrə müvafiq tapşırıqlar verib.

# Bakıda Azərbaycan və Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası ilə bağlı komissiyanın növbəti iclası keçiriləcək

Azərbaycan və Gürcüstan arasında dövlət sərhədlərinin delimitasiyası ilə bağlı komissiyanın növbəti iclası cari ilin 23-24 may tarixlərində Bakı şəhərində keçiriləcək.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclas Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov ilə Gürcüstanın xarici işlər nazirinin müavini Laşa Darsaliyanın rəhbərliyi ilə təşkil olunacaq.

# Azərbaycanın xarici işlər naziri BMT-nin İnkişaf Proqramının yeni rezident nümayəndəsi ilə görüşüb



Xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin İnkişaf Proqramının (BMTİP) Azərbaycanda yeni təyin olunmuş rezident nümayəndəsi Alessandro Frakassetti ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Alessandro Frakassetti təyinatı barədə müvafiq məktubu Elmar Məmmədyarova təqdim edib.

Elmar Məmmədyarov Alessandro Frakassettini yeni təyinatı münasibətilə təbrik edərək onun Azərbaycanla BMTİP arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə ümid etdiyini bildirib. Nazir ölkəmizin BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla davam etdiyini vurğulayıb və əlaqələrin daha da irəli aparılması üçün səylərin artırılmasının vacibliyini qeyd edib.

Öz növbəsində, Alessandro Frakassetti BMTİP sistemində aparılan struktur islahatları barədə məlumat verib və fəaliyyəti müddətində əlaqələrin inkişafı üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Prezident Administrasiyasının məsul işçiləri bölgələrdə vətəndaşların müraciətlərini dinləyiblər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçiləri respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 22-də Şirvan şəhəri, Daşkəsən, Füzuli, Xızı və Yardımlı rayonlarında sakinlərlə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevin tapşırığına əsasən keçirilən görüşlərdə sakinlərin qaldırdıqları məsələlər diqqətlə dinlənilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, digər müraciətlər isə operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün nəzarətə götürülüb.

Görüşlərdə qeyd olunub ki, Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına göstərdiyi diqqət və qayğı nəticəsində respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Bütün bunlar, ilk növbədə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılmasına yönəlib. Dövlət başçısının da dediyi kimi, yürüdülən siyasətin təməlində Azərbaycan vətəndaşı, onun rifah halının yaxşılaşdırılması dayanır. Son vaxtlarda imzalanan fərman və sərəncamlar, sosial-iqtisadi sahədə aparılan islahatlar Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.

Həmçinin görüşlərdə məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Qafqaz zubrları Azərbaycan təbiətinə qaytarılır







IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyi tərəfindən birgə həyata keçirilən "Zubrların Azərbaycana reintroduksiyası" proqramı çərçivəsində ölkəyə gətirilmiş zubrların mayın 21-də Şahdağ Milli Parkının İsmayıllı bölməsinə aid olan hissəsində onlar üçün yaradılmış xüsusi əraziyə buraxılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və digər qonaqlar iştirak ediblər.

Vaxtilə ölkəmizdə nəsli kəsilmiş vəhşi öküz - Qafqaz zubru növündən olan 8 baş heyvan mayın 16-da Fransa və Belçika zooparklarından Azərbaycana gətirilib. Onlar üçün Şahdağ Milli Parkının İsmayıllı bölməsində xüsusi ərazi yaradılıb. Heyvanlar bir müddət bu ərazidə adaptasiya dövrü keçdikdən sonra Şahdağ Milli Parkına buraxılacaq. Əraziyə bu il daha 12 baş zubrun gətirilməsi də nəzərdə tutulur.



Yerli sakinlər və məktəblilər də zubrlara xüsusi maraq göstərərək tədbirə qoşulub, nəsli tükənmək təhlükəsi altında olan növlərin bərpası istiqamətində aparılan işlərlə tanış olub və öz dəstəklərini nümayiş etdiriblər. Eyni zamanda, tədbirə qatılan yerli gənc təbiətsevərlərə zubrların Azərbaycanda tarixi, onların təbiətdə rolu və mühafizəsi haqqında mühazirələr təşkil olunub.

Zubrlar vaxtilə Avrasiyada çox geniş arealda yayılsa da, ötən əsrin əvvəllərində vəhşi təbiətdə nəsli, demək olar ki, kəsilib. Qafqaz dağlarında sonuncu zubr 1927-ci ildə öldürülüb. Hazırda dünyada mövcud olan zubrların böyük əksəriyyəti zooparklarda artırılıb və bu yolla növün bərpasına yönəlmiş səylər davam etdirilir. Vəhşi öküzlər güclü, cüssəli heyvanlardır və qədim zamanlardan insanlar tərəfindən güc rəmzi kimi qəbul olunub.

IDEA İctimai Birliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan nümayəndəliyi ilə birgə ölkəmizdə nadir növlər olan Qafqaz bəbiri, ceyran və zubrların populyasiyasının bərpası istiqamətində uğurlu layihələr icra edir.

Zubrların Azərbaycanda biomüxtəlifliyinin daha da zənginləşdirilməsi və meşə ekosistemlərinin inkişafında potensial rolunu nəzərə alaraq layihənin təşkilatçıları ölkəmizin şimal bölgələrində yaşayan əhalini və ümumiyyətlə respublika ictimaiyyətini Qafqaz zubrlarının təbiətimizə qaytarılması, onların mühafizəsi və qanunsuz ovlanmasının qarşısının alınması işinə dəstək olmağa çağırırlar.

# Ekoloji tarazlığın qorunması dövlətimizin siyasətinin prioritetləri sırasındadır



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncama əsasən, hər il mayın 23-ü ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Ekoloqların peşə bayramı gününün təsis edilməsi, 2010-cu ilin ölkəmizdə "Ekologiya ili" elan olunması, dövlət başçısı tərəfindən bu sahəyə aid sərəncamların verilməsi, yeni milli parkların yaradılması, ətraf mühitin qorunması, nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, ekoturizmin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər sübut edir ki, ekoloji tarazlığın qorunması dövlətimizin siyasətinin prioritetləri sırasındadır.*

*Ekologiya və təbii sərvətlər nazirinin müavini* ***Novruz Quliyev*** *AZƏRTAC-a məxsusi müsahibəsində ölkəmizdə ekoloji sağlamlaşdırma istiqamətində aparılan bu və digər işlərdən bəhs edib.*

*- Ekoloji tarazlığın qorunmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin mühüm rolu var. Son illər bu istiqamətdə görülən işlərin inkişaf dinamikası barədə nə deyə bilərsiniz?*

- Doğrudur. Zəngin təbiətimizin bioloji növ müxtəlifliyinin, ekosistemlərin qorunması və gələcək nəsillərə çatdırılmasının təmin edilməsində xüsusi mühafizə olunan təbiət ərazilərinin müstəsna rolu var.

2001-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılanda ölkədə ümumi sahəsi 478 min hektar olan 14 dövlət təbiət qoruğu və 20 dövlət təbiət yasaqlığı mövcud idi. Xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 faizini, o cümlədən dövlət təbiət qoruqlarının ümumi sahəsi isə ölkə ərazisinin cəmi 2,2 faizini təşkil edirdi. Həmin dövrdə Azərbaycanda milli park statuslu qorunan ərazilər yox idi və onların təşkilinə 2003-cü ildən başlanıb.

Milli parkların yaradılmasında əsas məqsəd ətraf mühitin, ekoloji tarazlığın, təbiət abidələrinin qorunması şərtilə ekoturizmin inkişafı, ekoloji maarifləndirmənin gücləndirilməsi, regionun zəngin təbiətinin mühafizəsindən ibarətdir.

Hazırda ölkəmizdə 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bunlardan 10-u milli park, 11-i dövlət təbiət qoruğu, 24-ü dövlət təbiət yasaqlığıdır. Ümumilikdə xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 faizini, ayrılıqda milli parklar 4,87 faizini, dövlət təbiət qoruqları 1,39 faizini, dövlət təbiət yasaqlıqları isə 4,05 faizini təşkil edir.

2018-ci ilin sentyabrında Xəzər dənizinin sahilində 99 min 060 hektarlıq ərazidə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yeni milli park - Qızılağac Milli Parkı yaradılıb. Bununla yanaşı, "Zaqatala biosfer qoruğunun yaradılması" layihəsi üzrə Zaqatala-Balakən regionunda Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında ölkə tarixində ilk biosfer qoruğunun yaradılması istiqamətində mühüm işlər görülür və bu işlərin sona çatdırılması nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi xeyli genişlənəcəkdir.

Bundan əlavə, xüsusi mühafizə olunan təbiət ərazilərini antropogen təsirlərdən qorumaq məqsədilə onların ətrafında sanitariya-mühafizə zonaları yaradılır. Artıq bir neçə milli park və qoruqda (Abşeron, Ağgöl, Altıağac və Göygöl milli parkları, həmçinin Korçay və Eldar Şamı dövlət təbiət qoruqları) bu işlər tam başa çatdırılmış və sanitariya-mühafizə zonaları təsdiq edilmişdir.

*- Nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması istiqamətində aparılan mühüm işlərdən biri onların tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması və populyasiyalarının bərpasıdır. Ölkəmizdə bu istiqamətdə hansı işlər görülür?*

- Bu işlər 2010-cu ildən etibarən intensiv xarakter alıb. Həmin il Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Heydər Əliyev Fondunun, Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq Təşəbbüsü - IDEA-nın və Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) Azərbaycan nümayəndəliyinin əməkdaşlığı çərçivəsində "Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası" layihəsinin icrasına başlanılıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyinin dəstəyi ilə ümumilikdə 179 baş ceyran tarixi areallarına qaytarılıb, bunun 169 başı respublikanın müxtəlif ərazilərinə, 10 başı isə Gürcüstanın Vaşlavani Milli Parkı ərazisinə köçürülüb.

Keçən il noyabrın 12-15-də WWF-in, AMEA-nın Zoologiya İnstitutunun, BMT-nin İnkişaf Proqramının (UNDP) Azərbaycan nümayəndəliyinin 20 mütəxəssisi tərəfindən və Şirvan Milli Parkının əməkdaşlarının birgə iştirakı ilə 6 marşrut üzrə ceyranların say monitorinqi aparılıb, məhəllələr üzrə bölünmüş milli park ərazisi boyu əldə edilmiş nəticələr emal olunub, işçi komandanın ortaq qərarına əsasən milli park ərazisində 9000 başadək ceyranın məskunlaşdığı qənaətinə gəlinib. Səkkiz il ərzində reintroduksiya edilmiş ceyranların sayı 213 başa çatdırılıb.

2012-ci ilin sonlarından etibarən zubr (bizon) növünün ölkəmizin vəhşi təbiətinə introduksiya edilməsi istiqamətində IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan ofisi tərəfindən intensiv işlər aparılır. Belə ki, 2015-ci ildə Şahdağ Milli Parkı ilə IDEA İctimai Birliyi arasında bu sahədə imzalanmış Əməkdaşlıq Sazişinə əsasən bizonların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması üçün Şahdağ Milli Parkının İsmayıllı rayonunun inzibati ərazisinə aid olan hissəsində 305 hektar sahə ayrılıb, ərazidə zubrların çoxaldılıb təbiətə buraxılması üçün kompleks inşa edilib və hazırda layihə çərçivəsində işlər davam etdirilir. 2019-cu ilin may ayında Azərbaycana 20 baş zubrun introduksiya olunması və 1 neçə ay müddətində qapalı volyer şəraitində saxlanıldıqdan sonra geniş təqdimat çərçivəsində təbiətə buraxılması planlaşdırılır.

*- Ölkəmizdə flora və faunanın genefondunun mühafizəsinin səmərəli vasitələrindən biri də "Qırmızı Kitab"ın yaradılmasıdır. Adları bu kitaba daxil edilən heyvan və bitki növlərinin mühafizəsinə daha ciddi diqqət yetirilir. Hazırda bu kitabda qorunma statusu olan neçə bitki və heyvan növü vardır?*

- "Azərbaycan Respublikasının Qırmızı Kitabı" rəsmi sənəd olmaqla bərabər, ölkənin bütün ərazisində, o cümlədən Xəzər dənizinin respublikamıza mənsub olan bölməsində heyvan və bitki növlərinin (yarımnöv, populyasiyalar) vəziyyəti, yayılması və mühafizəsi tədbirləri haqqında məlumatları özündə əks etdirir. İndiyədək Azərbaycanda "Qırmızı Kitab"ın 2 nəşri işıq üzü görüb. Birinci nəşrdə milli floramızda mühafizəsi tələb olunan 140, fauna üzrə isə 108 növün adı əksini tapıb. "Qırmızı Kitab"ın 2013-cü ildə çap olunmuş ikinci nəşrində isə mütəxəssislər tərəfindən ölkəmizin müxtəlif təşkilatlarının nümayəndələri ilə əməkdaşlıq çərçivəsində qorunma statusu qiymətləndirilmiş 300 bitki və 223 heyvan növü yer alıb.

Nadir və nəsli kəsilməkdə olan növlərin tədqiqi üzrə mütəxəssislər tərəfindən intensiv monitorinqlər keçirilib, bu növlərin beynəlxalq səviyyədə müasir qorunma meyarları müəyyənləşdirilib. Bu nəşrdə ilk dəfə olaraq təbiəti mühafizə baxımından təsvir edilmiş nadir və nəsli kəsilmiş növlərin beynəlxalq səviyyədə qəbul olunmuş meyarlara görə qiymətləndirilməsi həyata keçirilib.

Mövcud qanunvericiliyə əsasən, "Azərbaycan Respublikasının Qırmızı Kitabı"nın hər 10 ildən bir çap olunması nəzərdə tutulmuşdur. Növbəti, yeni üçüncü nəşrin 2023-cü ildə hazırlanması planlaşdırılır. "Qırmızı Kitab"ın ikinci nəşri prosesində texniki məsələlərlə bağlı bir sıra problemlərlə qarşılaşdıq. Bu səbəbdən işlərin vaxtında başa çatdırılması, texniki məsələlərin həlli, eləcə də çöl tədqiqatlarının aparılması, növlərin say dinamikasının qiymətləndirilməsi üçün nazirliyə Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarının da dəstəyi vacibdir. Qarşılıqlı əməkdaşlıq sayəsində daha çevik fəaliyyət göstərərək yüksək nəticəyə nail olmaq mümkündür.

"Qırmızı Kitab"ın təsis edilməsinə, nadir və sayı azalan növlərin ovuna qadağaların qoyulmasına, mütəmadi maarifləndirmə və təbliğat işlərinin aparılmasına baxmayaraq, təəssüf ki, quruda və su hövzələrində heyvanların qanunsuz ovu hallarına rast gəlirik və bununla bağlı mübarizə tədbirləri davam etdirilir.

*- Bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiyada Ekologiya və Təbii Sərvətlər Nazirliyi qarşısında çox vacib vəzifələr qoyulub. Bu istiqamətdə görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.*

- Bəli, bu, çox vacib sənəddir. Milli Strategiya Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 oktyabr tarixli sərəncamı ilə təsdiq edilib. Sərəncamın 2-ci bəndinə əsasən Strategiyanın həyata keçirilməsi üzrə əlaqələndirici orqan Ekologiya və Təbii Sərvətlər Nazirliyi təyin edilib, müvafiq dövlət qurumlarının nümayəndələrindən ibarət İşçi Qrupu yaradılıb. Həmçinin Strategiyanın icrası ilə bağlı "Tədbirlər Planı" hazırlanıb. "Tədbirlər Planı"na əsasən su hövzələrində bioloji resursların artırılması və mühafizəsi istiqamətində faydalı işlər görülüb.

Qeyd etmək lazımdır ki, ölkədə istehsal olunan balıq mənşəli məhsulların özünü təminetmə səviyyəsi aşağıdır və daxili tələbatı tam ödəmək üçün yetərli deyildir. Ötən illərdə balıqçılıq sahəsi əsasən ekstensiv üsulla inkişaf etdirilib, başqa sözlə, akvakulturada daha çox nohurçuluq üsulu ilə çəki kimi balıq növlərinin yetişdirilməsinə və təbii yemləməyə üstünlük verilib.

Ölkədə akvakulturanın zəif inkişaf etməsi nəticəsində balıq mənşəli məhsullar ilə daxili tələbatın tam ödənilməməsi təbii su hövzələrində olan, xüsusilə də Xəzər dənizində qiymətli balıq növlərinin populyasiyalarına antropogen təsirin əhəmiyyətli dərəcədə artmasına, brakonyerlik fəaliyyətinin genişlənməsinə səbəb olub.

Xəzər dənizində bioloji resursların müasir gərgin vəziyyətini nəzərə alaraq, balıqovlama fəaliyyəti ehtiyatlı yanaşmaya əsasən aparılmalıdır. Xəzəryanı regionunda və ölkəmizdə akvakulturanı inkişaf etdirmək, əhalini yeni fəaliyyət növü olan akvakulturaya cəlb etmək lazımdır ki, bu da qanunsuz balıq ovunun azalmasına və Xəzər dənizində su bioresurslarının bərpasına səbəb ola bilər. Xəzəryanı ölkələr və Azərbaycan üçün davamlı inkişafın əsas prioritetlərindən biri - daxili sularda və dənizdə akvakultura (o cümlədən, marikultura) təsərrüfatlarının inkişafı, Xəzər dənizində nərəkimilərin ovlanmasına moratoriumun qoyulmasıdır.

Azərbaycan Respublikasında intensiv sənaye balıqçılıq komplekslərinin, ailə-kəndli və fermer balıqçılıq təsərrüfatlarının yaradılması, dünyada mövcud olan mütərəqqi təcrübələrdən istifadə edilməklə təbii su hövzələrinin və Xəzər dənizinin ixtiofauna bioloji müxtəlifliyinin qorunub saxlanılması və artırılması, bu sahələrdən istifadə etməklə balıqçılıqda intensiv akvakulturanın müxtəlif biotexnologiya tiplərindən, qapalı su təchizatı sistemləri, marikultura və su bioloji resursları məhsullarının yetişdirilməsi üçün digər intensiv qəfəs modelləri təcrübəsinin respublikada tətbiq olunması məqsədilə "Azərbaycan Respublikasında 2019-2023-cü illərdə akvakulturanın inkişafına dair Dövlət Proqramı" hazırlanıb Nazirlər Kabinetinə təqdim edilib.

Balıqçılıq təsərrüfatlarında torpağın hüquqi statusu ilə əlaqədar problemlərin sudan istifadəyə görə balıqçılarla əkinçilər arasında maraqların toqquşmasının mövcudluğu, balıqçılıq subyektlərinin balıq və digər su bioresurslarından istifadəyə baytarlıq və fitosanitar nəzarəti üzrə uçotun aparılması və "Akvakulturanın həyata keçirilməsi qaydası"nın tətbiqindən irəli gələn digər məsələlərin həlli məqsədilə Kənd Təsərrüfatı Nazirliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə ikitərəfli Əməkdaşlıq memorandumları imzalanıb.

"Akvakulturanın həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 2017-ci il 14 iyun tarixli qərarının icrası ilə əlaqədar olaraq 2018-ci ildə respublikamızın müxtəlif bölgələrində akvakultura subyektləri ilə görüşlər keçirilib. "Balıqçılıq haqqında" qanuna və bu sahədə Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş digər müvafiq qərarlara əsasən, ölkəmizdə balıqçılıq sahəsində, balıq və digər su bioresurslarının mühafizəsi, ovu, artırılması, akvakultura fəaliyyətinin uçota götürülməsi, bu sahə üzrə dövlət tənzimlənməsi, idarə edilməsi və nəzarət funksiyaları ilə əlaqədar vətəndaşlara məlumatlar verilib və müzakirələr aparılıb.

*- Azərbaycanda milli parkların yaradılması ekoturizmin inkişafına təkan verib. Bu istiqamətdə hansı işlər görülüb?*

- Respublikamızda milli parkların yaradıldığı vaxtdan indiyədək onların turizm-rekreasiya potensialı olan ərazilərində təbiət turizminin inkişaf etdirilməsi, turist marşrutlarının təkmilləşdirilməsi və sayının artırılması istiqamətində aparılan işlər nəticəsində vahid qaydada 105-dən çox ekoturizm marşrutu pasportlaşdırılıb. Pasportlarda marşrutların başlanma və bitmə nöqtələri, marşrutun məqsədi, geniş təsviri, şəkilləri, xəritəsi, davametmə müddəti, hər marşrut üzrə tələb olunan ləvazimatlara dair geniş məlumat əks olunub. Bütün marşrutlar piknik və ocaq yerləri, o cümlədən turistlərin dincəlməsi üçün skamya və digər oturacaqlarla təmin edilib.

Turizm potensialının yüksəldilməsi məqsədilə ekoturizm marşrutlarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir, turistlərin məlumatlandırılması üçün Azərbaycan və ingilis dillərində standart formada giriş, məlumatverici, məntəqə və istiqamətləri əks etdirən lövhələr hazırlanaraq milli parkların ərazilərində yerləşdirilib. Azərbaycan Respublikasının Turizm Şurasının turizm sahəsində təhlükəsizliyin təmin edilməsinə dair İşçi Qrupu tərəfindən hazırlanan təkliflərə əsasən, bütün marşrutlar vahid standartlara uyğun mindən çox vahid yol nişanı ilə təchiz edilib. Həmçinin hər bir milli park üçün ekoturizmlə bağlı nəfis bukletlər nəşr etdirilib.

Milli parklarda ekoloji turizm sahəsində daha uğurlu nəticələrə və davamlı inkişafa nail olmaq üçün turist axınının stimullaşdırılması, müxtəlif yaş təbəqələrinin marağına cavab verən turizm infrastrukturunun qurulması, mövcud infrastrukturun təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi prioritetlərimiz sırasındadır.

*- Dövlət Statistika Komitəsinin illik hesabatına görə, 2018-ci ildə ölkə ərazisində ümumilikdə 6,6 milyon kubmetr məişət tullantısı olub. Hazırda məişət tullantılarının düzgün idarə edilməsi və utilizasiyası sanitar-ekoloji və sosial-iqtisadi baxımdan ölkəmizdə prioritet istiqamət kimi gündəmdə duran məsələlərdəndir. Bu barədə fikirlərinizi bilmək istərdik.*

-Ekoloji problemlərin həllinə yüksək dövlət qayğısı və bu işin dövlət siyasətinə çevrilməsi nəticəsində ölkəmizdə ekoloji mühitin yaxşılaşdırılması üçün çoxşaxəli tədbirlər həyata keçirilir ki, bu tədbirlərdən biri də Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün kompleks Tədbirlər Planı"na uyğun olaraq Balaxanı ərazisində ildə 500 min ton məişət tullantısını emal etmək gücünə malik müasir məişət tullantılarının yandırılması zavodunun və ildə 200 min ton tullantının çeşidləmə zavodunun tikilməsi və istismara verilməsidir. Məişət tullantılarının idarə olunması sisteminin təkmilləşdirilməsi məqsədilə son dövrlərdə ölkəmizdə həyata keçirilən digər bu kimi tədbirlər ümumilikdə idarəolunma sisteminin beynəlxalq tələblərə uyğun inkişafının təməlini qoyub və hazırda da bu istiqamətdə davamlı olaraq tədbirlər həyata keçirilir.

Bakı şəhəri ərazisində əmələ gələn məişət tullantılarının yığılması və daşınması Bakı Şəhər İcra Hakimiyyətinin, qəbulu və zərərsizlədirilməsi isə "Təmiz şəhər" ASC-nin səlahiyyətlərindədir.

Azərbaycan Hökuməti və Dünya Bankı ilə birgə həyata keçirilən "Bərk məişət tullantılarının vahid idarəçiliyi" layihəsi çərçivəsində Balaxanı məişət tullantıları poliqonunda beynəlxalq ekoloji standartlara və texniki normalara uyğun bərpa işləri aparılıb.

Respublikada yaranan məişət tullantılarının idarə olunmasına, yəni onların toplanması, yığılması və daşınmasına şəhər və rayon icra hakimiyyətlərinin mənzil-kommunal təsərrüfatı birlikləri, qəsəbə üzrə nümayəndəlikləri, həmçinin ərazi bələdiyyələri institusional cavabdeh təşkilatlardır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin apardığı araşdırmalar göstərir ki, regionlarımızda məişət tullantılarının idarə olunmasında problemlər qalmaqda davam edir. Belə ki, yaşayış məntəqələri ərazilərində məişət tullantılarının müəyyən olunmuş qaydada və bu məqsəd üçün ayrılmış sahələrdə yerləşdirilməməsi, tullantılar üçün konteynerlərin sayının kifayət etməməsi, tullantıların vaxtında daşınmaması və əksər hallarda yanması ətraf mühitin zərərli maddələrlə çirklənməsi ilə nəticələnir. Mövcud məişət tullantıları poliqonları da qanunvericiliyin tələblərinə cavab vermir. Belə ki, əksər poliqon əraziləri hasarlanmır, xəbərdaredici lövhələr quraşdırılmır, ətraf mühitdən təcrid olunmur, nəzarət və mühafizə formal xarakter daşıyır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 noyabr tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018-2022-ci illər üçün Milli Strategiya" təsdiq edilib. Strategiyanın məqsədi ölkədə bərk məişət tullantılarının yığılması xidmətlərinin genişləndirilməsi, bütün tullantıların təhlükəsiz və səmərəli zərərsizləşdirilməsinin təmin edilməsi, səmərəli ictimai maarifləndirmə kampaniyalarının təşkili, emal və tullantılardan təkrar istifadə yolu ilə ehtiyatların bərpa edilməsi potensialının artırılması və ekoloji tələblərə cavab verməyən açıq zibilxanaların tədricən ləğv edilməsidir. Qeyd olunanlarla yanaşı, regionlarda məişət tullantılarının idarə edilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə müasir ekoloji tələblərə cavab verən 8 regional sanitar poliqonun və 38 ötürücü məntəqənin tikilməsi və infrastrukturun yaradılması nəzərdə tutulub. Hazırda bu obyektlər üçün yerli icra hakimiyyətləri tərəfindən müvafiq torpaq sahələrinin ayrılması işləri davam etdirilir.

Sözügedən strategiyanın və Tədbirlər Planının icrası məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri də ölkə regionlarında məişət tullantılarının beynəlxalq təcrübəyə uyğun idarə edilməsinə dair maarifləndirmə işlərinin aparılmasıdır.

Bununla əlaqədar olaraq Ekologiya və Təbii Sərvətlər və İqtisadiyyat nazirliklərinin nümayəndələri tərəfindən rayonlarda icra hakimiyyətlərinin, aidiyyəti icra strukturlarının, bələdiyyələrin, təhsil müəssisələrinin nümayəndələrinin, tullantıların emalı ilə məşğul olan sahibkarların iştirakı ilə bərk məişət və plastik tullantıların idarə edilməsinə həsr olunan işgüzar görüşlərin keçirilməsi davam etdirilir.

*- Sonda 23 may peşə bayramı münasibətilə ETSN işçilərini təbrik edirik. Oxucularımıza nə demək istərdiniz?*

- Azərbaycanın gözəl, füsunkar təbiətinin qayğısını çəksinlər, onun flora və faunasını qorumaqda bizə dəstək olsunlar, gələcək nəsillərin ekoloji problemlərlə üzləşməməsi üçün bu gün nazirliyin həyata keçirdiyi qabaqlayıcı tədbirlərdə fəal iştirak etsinlər. Ekoloji şüurun kiçik yaşlarda formalaşması üçün valideynlərin, təhsil müəssisələrinin üzərinə də məsuliyyət düşür. Bu baxımdan ətraf mühitin mühafizəsində vətəndaşlarımızı hamılıqla səy göstərməyə və həmrəy olmağa səsləyirəm.

# “İlham Əliyev bizə yeni həyat verdi”

## Şamaxıda zəlzələdən evi qəzalı vəziyyətə düşmüş 32 ailə Prezidentin göstərişi ilə yenidən tikilən tam təmirli mənzillərə köçməyə hazırlaşır

*Əvvəli 1-ci səh.*

Tikinti işlərində səngimə yoxdur. Ev sahibləri də görülən işlərə nəzarət edirlər. Hazırda rayonda 116 ev tamamilə sökülüb, 38 evin inşası davam edir. Bunlardan 32 mənzildə son tamamlanma işləri görülür.

Sakinlər üçün tikilən yeni mənzillər əvvəlkinin sahəsinə uyğun inşa edilir. Əgər köhnə evin otaqlarının ümumi sahəsi 90 kvadratmetrə qədər olubsa yerində ikiotaqlı, 90-dan 130 kvadratmetrə qədərdisə üçotaqlı, 150 kvadratmetrdən çox olubsa dördotaqlı mənzillər tikilir. Hamam kompleksi isə vətəndaşların istəyinə uyğun ya mənzilin daxilində, ya da həyətdə tikilir. Yeni mənzillər 9 bal gücündə zəlzələyə davamlı olacaq. Rayon mərkəzindəki Şəhriyar, Fələki, Təbriz, Salman Mümtaz, Azadlıq, Vidadi və Səttar Bəhlulzadə küçələrində tikilən mənzillərdə son tamamlama işləri görülür.







Əvvəl



İndi



Əvvəl



İndi



Şəhriyar küçəsində yerləşən 40 saylı evdə demək olar ki, əsas işlər görülüb. Xəyalə Əbdürrəhmanovaya məxsus 110 kvadratmertlik 3 otaqlı fərdi yaşayış evyaxın zamanlarda təhvil veriləcək. Mənzildə son tamamlama işləri görülür. Bir neçə gündən sonra Əbdürrəhmanovlar ailəsi yeni mənzil sevincini yaşayacaqlar.

Salman Mümtaz küçəsindəki 31 saylı mənzilin sahibi Vahid Şıxıyev hər gün ustaların yanında olmaqla tikinti prosesinə nəzarət edir. “Zəlzələ bizə çox ağır təsir göstərdi. Evimizin divarları tamamilə dağılmışdı. 1955-ci ildə tikilmiş ev idi. Amma Prezident İlham Əliyev bizə böyük dayaq oldu. İndi köhnə evimizin yerində daha möhtəşəm mənzil tikilib. Bir neçə gündən sonra bu mənzildə yeni həyatımız başlayacaq. Tanrı Azərbaycan Prezidentini qorusun! Çətin günlərdə insanlara dəstək olduğu üçün xalq da dövlət başçısına güvənir, inanır. Biz bu yaxşılığı heç zaman unutmarıq”.

Digər evin sahibi, Vidadi Məmmədov küçəsi 7 saylı mənzildə yaşayan Mailə Quliyeva da çox sevinclidir. Prezidentin göstərişi ilə Mailə xanım üçün 70 kvadratmetrlik 2 otaqlı mənzil inşa olunur.

Bu bizim Mailə xanımla ikinci görüşümüz idi. Zəlzələ baş verəndən sonra onun dağılmış mənzilinə baş çəkmişdik. Həmin zaman ağbirçək ananın simasında zəlzələnin həyəcanı hələ də hiss olunurdu. Amma bu gün vəziyyət ürəkaçandır: “Zəlzələ mənim ömrümdən aldı. Nəvələrimi qorumaq üçün masanın altında gizləndik. Xoşbəxtlikdən heç nə olmadı. Şokda idim. Amma Prezident İlham Əliyevin Şamaxıya gəlişi bizə təsəlli oldu. Dövlət başçısı ilə görüşdüm və mənə dedi ki, narahat olma, daha möhtəşəm, daha yaxşı ev tikiləcək. Sanki sevincimdən ürəyim yerindən çıxırdı. Bir ana kimi Prezidentə minnətdaram. Bizi darda qoymadı. Harayımıza, imdadımıza yetişdi. Bizə göstərdiyi qayğını hər kəs gördü. Köhnə evlərimizin yerində əvvəlkindən daha yaxşısını tikdirdi. Prezidentimiz bizə yeni həyat verdi. Allah Prezidentimizi, xanımı Mehriban Əliyevanı qorusun, balalarını, nəvələrini gözlərinə çıraq eləsin. Azərbaycan xalqının dayağıdırlar. Hər zaman xalqın dar günündə özlərini yetirirlər. Hər kəs televizorda baxıb görür ki, Prezident xalqın yaxşı yaşaması üçün nələr edir”.

Evin daxili tamamlama işləri başa çatdıqdan sonra Mailə xanım yeni mənzilə köçəcək və nəvələri də nənələrinin təzə evində yay tətili keçirəcəklər.

Hazırda Şamaxının Salman Mümtaz, Səttar Bəhlulzadə, Vidadi, Hacı Məmmədov, Azadlıq küçələrində sökülən mənzillərin yerində yeni evlər tikilməkdədir. Mənzillər tezliklə sakinlərinə təhvil veriləcək.

Ümumiyyətlə, Şamaxı rayonu dağlıq ərazidə yerləşdiyindən zəlzələ zamanı dağıntılar rayonun müxtəlif hissələrində baş vermişdi. Hətta bəzi sürüşmə zonalarındakı mənzillər də ziyan çəkib ki, onların yenidən bərpası mümkün deyil. Ancaq dövlət bunu da nəzərə alıb. Prezidentin göstərişi ilə bərpası daha mümkün olmayan evlərin sahibləri üçün 4 mərtəbəli yaşayış binası tikilir. Yeni yaşayış binası 2 blokludur və 44 mənzildən ibarət olacaq.

Prezident İlham Əliyevin martın 7-də Şamaxıya səfəri çərçivəsində təməlini qoyduğu yaşayış binasında sürətli tikinti işləri gedir. Rayonun 20 Yanvar küçəsi ilə M.H.Şəhriyar küçələrinin kəsişməsində inşa olunan binadakı tikintiyə 60-a yaxın işçi qüvvəsi və xeyli sayda texnika cəlb edilib.

Tikinti üzrə mühəndis Eldəniz Həsənov deyir ki, digər fərdi evlər kimi, bu binada da bütün mənzillər zəruri infrastrukturla təchiz ediləcək. Mənzillərinin ümumi sahəsi 2947,2 kvadratmetr olan binada 1, 2 və 3 otaqlı mənzillər yerləşəcək. Binada 4 birotaqlı, 32 ikiotaqlı və 8 üçotaqlı mənzil olacaq. Hazırda binanın bir hissəsinin 3-cü, digər hissəsinin isə 2-ci mərtəbəsində beton-konstruksiya işləri görülür. Mühəndisin sözlərinə görə, sentyabr ayında tikinti işləri tam başa çatdırılacaq.

44 mənzilli yaşayış binasından başqa Prezident İlham Əliyevin göstərişi ilə Şamaxıda bərpası mümkün olmayan evlərin sakinləri üçün daha iki bina tikiləcək. Artıq növbəti binaların yeri də müəyyənləşib. Binaların biri 1 blokdan ibarət 5 mərtəbəli 20 mənzilli, digəri isə 5 mərtəbəli 110 mənzilli olacaq.

Göründüyü kimi, Şamaxıda sürətli tikinti-quruculuq işləri gedir. Müvəqqəti sığınacaqlarda məskunlaşdırılan sakinlər isə yeni mənzillərinə köçməyə tələsirlər. Tezliklə 32 ailə yeni mənzilinə qovuşacaqdır. Digər sakinlər də dördmərtəbəli binada yeni mənzillə təmin olunacaqlar. Bütün bunlar isə dövlətin, Prezident İlham Əliyevin vətəndaşlara münasibətinin, göstərdiyi diqqətin real təzahürüdür.

***Rəşad BAXŞƏLİYEV, Elçin ÇƏFƏROV,*** ***“Azərbaycan”***

# Təhlükəsizliklə bağlı hüquqi bazanın gücləndirilməsi daim diqqət mərkəzindədir

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin mayın 22-də keçirilən iclasında üç məsələ müzakirə olundu.

Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ilk olaraq “Terrorçuluğa qarşı mübarizə haqqında” və “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” qanun layihəsini müzakirəyə təqdim etdi.

Layihə barədə məlumat verən Ziyafət Əsgərov dedi ki, dəyişikliklər Cinayət Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədar olaraq uyğunlaşdırma məqsədi daşıyır. Belə ki, Cinayət Məcəlləsinə yeni maddələrin əlavə edilməsi digər qanunlara da dəyişikliklərin olunmasını zəruri edir. O da qeyd olundu ki, təhlükəsizliklə bağlı hüquqi bazanın gücləndirilməsi daim diqqət mərkəzindədir.

Daha sonra “Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə” qanun layihəsi müzakirəyə çıxarıldı. Saziş bu ilin aprel ayında Ər-Riyad şəhərində iki dövlətin Silahlı Qüvvələrinin Baş Qərargah rəisləri tərəfindən imzalanıb. Sazişin məqsədi iki dövlət arasında müdafiə sahəsində əməkdaşlığı mövcud imkanlara uyğun olaraq inkişaf etdirmək və möhkəmləndirməkdir.

İclasda son olaraq “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsi müzakirə edildi. Komitə üzvləri məsələlərlə bağlı fikirlərini bildirdilər. Yekunda hər üç qanun layihəsi Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,*** ***“Azərbaycan”***

# Vətəndaşların qəbulu keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin may ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Əhməd Əhmədzadə mayın 22-də Kürdəmir şəhərində Kürdəmir və Ucar rayonlarının sakinlərini, sədr müavinləri isə Ağdaş və Göyçayda vətəndaşları fərdi qaydada qəbul ediblər.

AZƏRTAC xəbər verir ki, Kürdəmir Suvarma Sistemləri İdarəsinin inzibati binasında keçirilən qəbulda Kürdəmir və Ucar rayonlarından olan vətəndaşların müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən suvarma suyuna tələbatın ödənilməsi, yeni subartezian quyularının qazılması, nasos stansiyalarının tikintisi və təmiri, suvarma kanallarının lildən təmizlənməsi, maddi yardım, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Əhməd Əhmədzadə Kürdəmirdə keçirdiyi qəbulda 56 vətəndaşı qəbul edib. Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə qəbulda iştirak edən məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Eyni zamanda, ASC-nin sədr müavinləri Zakir Quliyev Ağdaşda 15, Rafiq Aslanov isə Göyçayda 11 vətəndaşı qəbul edib. Ümumilikdə, bölgə üzrə 82 vətəndaşın qəbulu həyata keçirilib.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Qafqazın dan ulduzu

## Azərbaycan regionda sülhün təminatçısı kimi çıxış edir

*Əvvəli 1-ci səh.*

Maraqlısı odur ki, bu gün “qədim”liyini, dünyəvi və demokratik dəyərlərə “sədaqət”ini əlində bayraq edən işğalçı Ermənistanın yeni rəhbərliyinin köhnələri yamsılaması acı ironiya doğuran parodiyadan savayı bir şey deyil. Əgər Azərbaycan diplomatiyası dövlətin bütün siyasi məqsədlərinin sülh və danışıqlar yolu ilə əldə edilməsinə yönəlibsə, Ermənistan “diplomatiya”sı ən sadə məsələlərin həllini müharibələrin dalanında eşələnib axtarır.

Bəli, artıq özünü dünyaya Qafqazın söz sahibi kimi təqdim edən Azərbaycanın diplomatik sülh cəhdləri göz önündədir. Göz önündə olan həm də Ermənistanın gizlədə bilmədiyi və gizlətmək istəmədiyi işğalçılıq siyasətidir. Eyni zamanda, qonşu ölkənin Qafqazı qan çanağına, müharibə ocağına çevirmək, Rusiya ilə Türkiyəni müharibəyə çəkmək cəhdləri də diqqətdən kənar qalmamalıdır. Erməni millətçiləri bu məqsədlər üçün dünyanın böyük güc mərkəzləri ilə istənilən məzmunda əməkdaşlığa qoşulur və bununla siyasi tərəfdaşlarını əlcək kimi dəyişirlər.

Cənubi Qafqazda coğrafi mənada bu iki xalq qonşudur, yan-yana yaşayır. Lakin onlar fərqli dəyərlərə və fərqli məqsədlərə xidmət edirlər. Hərbi müstəvidə Azərbaycanla Ermənistan arasında sərhəd boyu səngərlər qazılıb, atəşkəs olsa da Ermənistanın işğalçı qüvvələri Azərbaycan torpaqlarındadır, dinc əhalini atəşə tutur, günahsız insanları qətlə yetirir. Atəşkəs adlı sükut altında “qonşuluq” edən iki dövlətin sülh proseslərinə münasibəti fərqlidir. Azərbaycan əmin-amanlığa, Ermənistan isə işğal ideyalarına sadiqdir.

Azərbaycan Prezidenti işğalçılıq siyasətinin Ermənistan iqtisadiyyatına qənim kəsildiyini deyir: “Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır”.

Azərbaycan diplomatiyası Ermənistanın xəstə nasist ritorikasından fərqlidir, neytrallığını qoruyur, diplomatik ünsiyyətlərin artırılmasına, danışıqların aparılmasına, münaqişəli məqamların açıq müzakirəsinə gedir, rəsmi və işgüzar səfərlərə üstünlük verilir. Bakı artıq neytral tərəf kimi böyük güclərin diplomatik görüşlərinə, çoxsaylı beynəlxalq tədbirlərə, konfranslara, forumlara evsahibliyi edir, ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərin bağlanılmasında, diplomatik sənədlərin imzalanmasında fəaldır.

Bütün bu diplomatik səylərin fonunda isə Ermənistanın millətçi nasist ideologiyası öz təcridini gücləndirir. İrəvan beynəlxalq münasibətlər sistemində bütün qonşularına diş qıcayır, hamını müharibəyə sürükləməyə açıq və gizlin cəhdlər edir. Ermənistan həmçinin beynəlxalq aləmdə “sədaqətini itirmiş məşuqə” kimi hamının gözündən düşür. Rusiya Xarici İşlər Nazirliyi erməni nasist ideologiyasının müəllifi və Hitlerin əlaltısı Njdenin İrəvanda ucaldılan abidəsinə ilk baxışda göz yumsa da, qəzəbini də gizlətmədi.

Bəli, bu gün Azərbaycan iki dəniz arasında sülh bayrağını ucaya qaldıra bilən, daim əməkdaşlığa sadiq qalan, Ermənistan isə əbədi sədaqət andı içdiyi istənilən dövlətə xəyanət etməyə qadir və hazır olan ölkə kimi tanınır.

***Bahadur İMANQULİYEV,*** ***“Azərbaycan”***

# Ölkə iqtisadiyyatının qan damarı

## Azərbaycan dəmiryol infrastrukturunun yenidən qurulması davam edir

*Əvvəli 1-ci səh.*

Azərbaycanın nəqliyyat sisteminin əsas sahələrindən olan dəmiryol nəqliyyatı indi özünün yenidən qurulması dövrünü yaşayır. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahənin inkişafı, dünya standartlarına çatdırılması istiqamətində məqsədyönlü layihələr icra edilir. Həmin layihələr bu sahədə islahatların daha da sürətlənməsinə, dəmiryol nəqliyyatı vasitələrinin müasirləşdirilməsinə müsbət təsir göstərir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev mayın 21-də Sabunçu dəmir yolu vağzalı kompleksinin açılışında iştirak etmiş, Bakı sərnişin-Sabunçu dəmiryol xətti üzrə görülən işlərlə tanış olmuşdur. Dövlət başçısına məlumat verilmişdir ki, Sabunçu dəmir yolu vağzalı üçmərtəbəli binada 4,1 min kvadratmetr sahədə yerləşir. Binanın birinci mərtəbəsində gözləmə zalı, bilet satışı kassaları, məlumat bürosu, server otağı, əşyaların saxlanması kamerası yerləşir. Vağzalda həmçinin müasir təhlükəsizlik kameraları, yanğınsöndürmə və havalandırma sistemləri, əlavə olaraq eskalator, lift, 17 turniket quraşdırılıb. Bunlardan savayı, vağzalda iki piyada alt keçidi inşa edilib, iki yeni platforma salınıb, işıqlandırma dirəkləri və müasir sərnişin dayanacaqları quraşdırılıb. Stansiyanın ərazisindəki üç dəmiryol xətti isə tamamilə yenidən quraşdırılıb.

Layihəyə əsasən, Bakı dairəvi dəmiryol xətti üzrə görülən işlərin davamı olaraq Məmmədli kəndində uzunluğu 17 metr olan yeraltı avtomobil, həmçinin Kürdəxanı kəndində uzunluğu 22 metr olan yeraltı avtomobil və yerüstü piyada keçidləri tikilib.

Dövlət başçısı kompleksin açılışında iştirak edən qəsəbə sakinləri ilə görüşündə sosial infrastrukturun yaradılmasının əhəmiyyətini vurğulayaraq demişdir: “...Bakıda, bütün rayonlarda, Bakıətrafı qəsəbələrdə, hər yerdə hansısa obyektin açılışı olur, istər sosial obyekt, istər infrastruktur obyekti. İndi yol çəkilişi sürətlə gedir, Sabunçu rayonunun da yollarının təmiri ilə bağlı işlər görülür. Yəni çalışırıq maksimum nə qədər mümkündürsə edək ki, insanlar daha yaxşı yaşasınlar, maddi rifah artsın, dolanışıq daha yaxşı olsun... Pensiyaların, əməkhaqlarının, müavinətlərin artırılması gündəlikdə duran məsələlərdən biridir”.



Bəli, bu bir həqiqətdir ki, Azərbaycanda həyata keçirilən beynəlxalq əhəmiyyətli layihələr ölkəmizə iqtisadi və siyasi dividendlər qazandırır. Lakin yerli əhəmiyyətli dəmiryol xətlərinin çəkilməsi də unudulmur. Dövlət başçısı 11 dekabr 2018-ci ildə sözügedən sahə üzrə bir sərəncam imzalamışdır. “Ləki-Qəbələ dəmiryol xəttinin tikintisi ilə bağlı tədbirlər haqqında” olan bu sərəncam ölkədə həm dəmir yolu nəqliyyatının, həm də turizm sektorunun inkişafına hədəflənib. Sərəncamda deyilir ki, ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması, digər sahələrdən gələn gəlirlərin artırılması, qeyri-neft sektorunun sürətli inkişafı Azərbaycanda aparılan iqtisadi islahatların əsas istiqamətlərindəndir: “Qeyri-neft sektorunun iqtisadi cəhətdən ən sərfəli sahələrindən biri hesab edilən turizmin inkişafı ilə bağlı son illər həyata keçirilən tədbirlər nəticəsində bu sahədə ciddi nailiyyətlər əldə edilmiş, o cümlədən turizm obyektlərinin sayı çoxalmış, xidmət sahəsi yüksəlmiş, yerli əhalinin milli turizmə marağı, eləcə də ölkəyə səfər edən turistlərin sayı xeyli artmışdır” deyə sərəncamda vurğulanır. Bir daha xatırladaq ki, ölkənin əsas turizm mərkəzlərindən olan Qəbələ şəhərinə və əks istiqamətə dəmir yolu ilə sərnişindaşımaların həyata keçirilməsi üçün Ağdaş rayonu ərazisində yerləşən Ləki stansiyasının yaxınlığından uzunluğu 43 kilometr olan yeni dəmiryol xəttinin tikintisi turizm infratstrukturunun yaxşılaşdırılmasına və turizm obyektlərinə yetərliyin təmin olunmasına xidmət edir. Yolun gələn il istifadəyə verilməsi gözlənilir.

Bu sırada Bakı-Yalama və Bakı-Astara dəmir yollarının modernləşdirilməsi layihələrini də qeyd etmək olar. Bundan əlavə, gələcəkdə Xaçmaz rayonu ərazisindən Qusar rayonuna dəmir yolunun çəkilməsi nəzərdə tutulur. Söz yox ki, bu layihələrin icrası bölgələrdə həm turizmin, həm də iqtisadiyyatın inkişafına geniş imkanlar yaradacaq.

***Rüstəm KAMAL,*** ***“Azərbaycan”***

# Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, mayın 22-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan tərəfindən isə monitorinqi şəxsi nümayəndənin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika aparıblar.

# Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan respublikasının Noyemberyan rayonunun Dovex kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## İlham Əliyevin sənayeləşmə siyasəti real nəticələr verir

Əvvəli 1-ci səh.




Bunun nəticəsidir ki, bir çox sənaye müəssisələrinin fəaliyyətə başlaması digər sahələrin inkişafına təkan verir. Məsələn, Mingəçevir Sənaye Parkındakı iplik istehsalı müəssisəsi aqrar sektor üçün məhsul satmaq imkanı yaradıb. Yəni fermerlər istehsal etdikləri məhsulun bazarda alıcısının olmasından əmindirlər.

Bu isə kəndlinin daha çox məhsul istehsal etməyini stimullaşdıran amillərdən biridir. Prezident İlham Əliyev ölkədə həyata keçirilən sənayeləşmə siyasətinə xüsusi önəm verdiyini bildirərək demişdir: "Sənayemizin inkişafı sayəsində həm daxili tələbat tam ödəniləcək, həm də biz öz yeni məhsulumuzu xaricə ixrac etmiş olacağıq.

Bu, sənayemizin inkişafına verilən töhfədir. Ölkəmizdə sənaye istehsalı artır. Görülən işlər nəticəsində bu ilin dörd ayında qeyri-neft sektorunda 15 faizdən çox artım olub. Həm sənaye potensialımızı gücləndirən böyük müəssisələr fəaliyyətə başlayır, həm də kiçik və orta müəssisələr işə düşür. Ölkəmizdə çox gözəl biznes mühiti, sərmayə iqlimi var. Belə olmasaydı, xarici şirkətlər, yerli şirkətlər vəsait qoymazdılar.

Beləliklə, biz biznes mühitinin yaxşılaşması nəticəsində yeni reallıqları görürük və əminəm ki, dinamik inkişafımız bundan sonra da təmin ediləcək".

Son 15 ildə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə 250 milyard dollar sərmayə yatırılıb ki, bunun da nəticəsində ölkə üzrə ümumi daxili məhsul istehsalı 3,3 dəfə, o cümlədən qeyri-neft sektorunda məhsul istehsalı 2,8 dəfə, sənaye potensialımız 2,6 dəfə artıb. Keçən il isə qeyri-neft sənayemiz 9,1 faiz yüksəlib.

Qeyri-neft sektorunun inkişafına dövlət dəstəyi tədbirləri çərçivəsində 2014-2018-ci illərdə bu sektorda 8, qeyri-neft sənayesində 32 faiz artım qeydə alınıb. Həmin dövrdə 16 mindən çox sahibkarın ümumi dəyəri 2,6 milyard manat olan layihələrinə 1 milyard manatdan çox güzəştli kredit verilib. Bu vəsaitin 79 faizi aqrar sektorun, 21 faizi müxtəlif sənaye və digər emal sahələrinin inkişafına yönəldilib. Həyata keçirilən islahatlar sayəsində qeyri-neft sektorunun inkişafı ölkədə məhsul istehsalının ildən-ilə artmasını təmin edir. Bunun nəticəsidir ki, cari ilin 4 ayında qeyri-neft sektorunda 15 faizdən çox artım qeydə alınıb. Ölkədə qeyri-neft sektorunun inkişafı sayəsində təkcə cari ilin yanvar-mart aylarında 415,3 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 16,5 faiz, real ifadədə 10,9 faiz çoxdur.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## "The National Interest" jurnalında "Cənub qaz dəhlizi"nin əhəmiyyəti və Transxəzər qaz kəmərinin imkanları barədə məqalə dərc edilib

**Amerikada çıxan "The National Interest" jurnalında "İrs Fondu" yanında Ellison adına Xarici Siyasi Araşdırmalar Mərkəzinin direktoru Lyuk Koffinin və Vaşinqtondakı Xəzər Siyasi Mərkəzinin direktoru Əfqan Niftinin məqaləsi dərc edilib.**




AZƏRTAC-ın yaydığı xəbərdə bildirilir ki, məqalədə Transxəzər qaz kəmərinin imkanlarından bəhs edilir. Müəlliflər yazırlar ki, Cənubi Qafqazda birinci enerji boru kəməri hələ 1906-cı ildə fəaliyyətə başlayıb. Xəzər dənizi sahilindəki Bakı limanını Qara dənizdən Batumi limanı ilə birləşdirən həmin boru kəməri layihəsi üçün istifadə edilmiş borular Mariupolda (Ukrayna) hazırlanırdı. Bu fakt geniş bir regionda mövcud olmuş və hələ də üstünlük təşkil edən qarşılıqlı əlaqələrin möhkəmliyinə sübutdur.

Müəlliflər yazırlar ki, diametri cəmi 20 santimetr olan həmin boru kəmərindən ağ neftin nəql edilməsi üçün istifadə olunurdu. İndi o vaxtdan bir əsrdən çox keçəndən sonra həmin boru kəmərinin əvəzinə Orta Asiyanı Avropa ilə birləşdirən müasir qaz və neft kəmərləri şəbəkəsi qurulub. Lakin regionda istifadəyə verilmiş və hələ tikilməkdə olan bütün boru kəmərlərini nəzərə aldıqda belə, daha bir mühüm tərkib hissə çatışmır. Transxəzər qaz kəməri təbii qazın Xəzər dənizindən nəql edilməsinin iqtisadi baxımdan yeganə məqsədəuyğun üsuludur, çünki maye qazın belə qısa məsafədə dəniz yolu ilə nəql edilməsi sadəcə sərfəli deyil.

Transxəzər boru kəməri Avropanın enerji landşaftını dəyişdirə bilər. Son hesablamalara görə, Xəzər regionunda 292 trilyon kub fut təbii qaz var. Bu o deməkdir ki, Xəzər regionu dünyada ən zəngin ehtiyatlara malik olan regiondur. Azərbaycan 2018-ci ilin ortalarında Transanadolu boru kəməri (TANAP) vasitəsilə Türkiyəyə qaz nəql etməyə başlayıb və gələn il Transadriatik qaz kəməri vasitəsilə İtaliyaya nəql etməyə başlayacaq. "Cənub qaz dəhlizi"nin layihə gücünün 31 milyard kubmetrə bərabər olduğunu nəzərə alsaq, gələcək Transxəzər qaz kəmərindən qaz nəqlini daha da artırmaq mümkün olacaq. Transxəzər qaz kəməri Avropa ölkələrinin digər təchizatçıların inhisarından asılılığını da azalda bilər. Üstəlik, keçən il beş Xəzəryanı ölkə tərəfindən imzalanmış Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya boru kəmərlərini yalnız layihədə iştirak edən ölkələrin razılığı ilə çəkməyə imkan verir ki, bu da öz növbəsində yeni imkanlar yaradır.

Lakin Koffi və Niftinin fikrincə, Transxəzər boru kəmərini inşa etməzdən əvvəl Bakı və Aşqabad Xəzər dənizində Azərbaycanın və Türkmənistanın offşor yataqları arasında interkonnektor tikilməsi məsələsini həll etməlidirlər. Gələcəkdə interkonnektorlardan istifadə etməklə Qazaxıstanın qaz yataqlarının da bu kəmərə qoşulması variantları öyrənilməlidir, çünki Qazaxıstanın bəzi yataqları kommersiya baxımından rentabelli sayıla bilməz, onlar kifayət qədər yaxın yerləşir.

Türkmənistan və Azərbaycanın mövcud qaz yataqlarını birləşdirən interkonnektorun uzunluğu cəmi 60 mil olacaq və onun tikintisinə cəmi 500 milyon dollar xərc çəkmək lazım gələrdi. Müqayisə üçün bildirək ki, bütün Transxəzər boru kəmərinin tikintisinə təqribən 1,5 milyard dollar lazım gələcək. İnterkonnektorun olması Avropanın uzunmüddətli enerji təhlükəsizliyinə şərait yaradan böyük nailiyyət olardı.

Transxəzər boru kəmərinin tikintisinin başa çatdırılması Birləşmiş Ştatlar üçün də bir sıra üstünlüklər yaradacaq. Maraqlıdır ki, Tramp administrasiyasının bəzi nümayəndələri bu faktı indidən etiraf edirlər. Prezident Tramp bu yaxınlarda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədova Novruz bayramı münasibətilə göndərdiyi məktubundan yazırdı: "Ümidvaram ki, Türkmənistan bu yaxınlarda Xəzər dənizinin hüquqi statusu müəyyən ediləndən sonra Qərbə qaz ixracı üçün yaranmış yeni imkanlardan istifadə edə biləcək". Transxəzər boru kəmərinin Birləşmiş Ştatlar üçün ən aşkar üstünlüyü ondan ibarətdir ki, bu kəmər Avropanın enerji təhlükəsizliyini artıracaq.

Koffi və Nifti öz məqalənin sonunda yazırlar ki, Tramp administrasiyası "Cənub qaz dəhlizi" və Transxəzər boru kəməri kimi alternativ mənbələrdən qaz təchizatı layihələrinin həyata keçirilməsini dəstəkləməlidir. Tramp administrasiyası bu məsələdə 1990-cı illərdə Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsinin reallaşdırılması məsələsində Bill Klinton administrasiyasının nümayiş etdirdiyi kimi qətiyyətli olmalıdır.

## Yüksək Texnologiyalar Parkında İsrail nümayəndələri ilə görüş keçirilib

Yüksək Texnologiyalar Parkının (YT Park) direktoru Tural Kərimli İsrailin Azərbaycandakı səfirliyinin birinci katibi və missiya rəhbərinin müavini Avital Rosenberq, Kadr hazırlığı və inkişafı üzrə büronun kadetləri Doron Pier və Şifra Veis-Kubanu ilə görüşüb.

T.Kərimli İsrail nümayəndələrini İnnovasiyalar Agentliyinin fəaliyyəti, gələcək tədbir və planları ilə bağlı məlumatlandırıb, Azərbaycanda yüksək texnologiyaların inkişafına dair görülən işlərdən bəhs edib.

Qonaqlar gələcəkdə İnnovasiyalar Agentliyi ilə birgə müxtəlif innovativ tədbir və layihələrin həyata keçirilməsinə dair istəklərini ifadə ediblər. Daha sonra İnnovasiyalar Agentliyi və İsrailin birgə startaplar innovasiya ekosistemin liderləri və tələbə mübadiləsi proqramının təchiz edilməsi perspektivləri, həmçinin "Hackathon" və digər texnologiyayönümlü tədbirlərin keçirilməsi müzakirə olunub.

## TANAP boyunca fiber-optik kabellərin çəkilməsi işlərinin 99 faizi tamamlanıb

Keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəməri istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli isə planlaşdırıldığı kimi, iyunun 30-da başlayıb. Türkiyə bu vaxtadək TANAP-la 1,5 milyard kubmetr Azərbaycan təbii qazı alıb.

İyunun sonunadək bu həcm 2 milyard kubmetrə, 2019-cu ilin axırına kimi isə 4 milyard kubmetrə çatacaq. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

TANAP-ın Avropaya qaz nəqlini nəzərdə tutan ikinci fazası üzrə tikinti işlərinin 99 faizi başa çatıb. Boru kəməri bu il "Trans-Adriatik" (TAP) qaz boru kəmərinə birləşmək üçün hazır olacaq. Layihə üzrə kapital xərcləri 8 milyard dollardır və bu vaxtadək TANAP-a təqribən 6 milyard dollar xərclənib.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyə və Avropaya nəql edəcək TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 480 kilometrdir.




## Bakı-Qəbələ dəmiryol xətti gələn il istifadəyə veriləcək



Gələn ilin ikinci yarısından sərnişinlər Bakı-Qəbələ sürət qatarından istifadə edə biləcəklər.

"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov qeyd edib ki, Ləki stansiyasından başlayaraq 45 kilometrlik yolun yarısı artıq çəkilib: "Hesab edirəm ki, ilin sonunda torpaq yatağı işləri də tam başa çatdırılacaq. Sərnişinlər Qəbələyə 2,5-3 saata rahat və hər bir şəraiti olan vaqonlarla gedə biləcəklər".

## Yekaterinburqa ixrac missiyası təşkil olunacaq

Azərbaycan iyulun 6-9-da Rusiyanın Yekaterinburq şəhərinə ixrac missiyası təşkil edəcək.

İxrac missiyası spirtli içkilər və sənaye sektorunu əhatə edəcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu missiyada iştirak üçün sənəd qəbulu elan edib. İxracatçılar müsabiqə əsasında seçiləcək.

## Avroliqanın final oyunu ilə əlaqədar banklar gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək




Mayın 29-da UEFA Avropa Liqasının final oyununun Bakıda keçirilməsi ilə əlaqədar Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) təşəbbüsü ilə banklar mayın 27-dən iyunun 1-dək gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək.

Palatanın mətbuat xidmətinin məlumatına görə, əhalinin, ölkəmizdə səfərdə olan turistlərin və xarici qonaqların bank xidmətlərindən rahat faydalanmasının təmin edilməsi məqsədilə 22 bankın 75 filial və şöbəsi müştərilərə gücləndirilmiş iş şəraitində xidmət edəcək, 9 bankın 12 filial və şöbəsi 24 saat rejimində fəaliyyət göstərəcək.

Bundan əlavə, UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyunu ərəfəsində ölkə əhalisinin və turistlərin maliyyə xidmətlərindən asanlıqla faydalanması üçün MBNP tərəfindən istifadəyə verilmiş i-MAP informativ xəritədə "FinalBaku2019" başlıqlı bölmə yaradılıb.

Final oyunu ərəfəsində MBNP-nin əməkdaşlarından ibarət xüsusi monitorinq qrupu fəaliyyət göstərəcək. Yarana biləcək hər hansı sual və ya problemlə bağlı vətəndaşlar və şəhərimizin qonaqları MBNP-yə müraciət ünvanlaya biləcəklər.

### 23 may ekoloqların peşə bayramıdır

## Azərbaycanda ətraf mühitin mühafizəsi dayanıqlı inkişaf strategiyasının tərkib hissəsidir

Son yüzillikdə iqtisadiyyatın bütün sahələrinin sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilmişdir.



Demoqrafik artımla yanaşı istehlakın kəskin artması, gələcəkdə bərpası mümkün olmayacaq təbii ehtiyatların tükənməyə başlaması kimi rahatsızlıq doğuran məsələlər ətraf mühitlə bağlı düşüncə və fəaliyyətlərə də öz təsirini göstərmişdir.

Qlobal ekoloji böhran şəraitində iqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında zəruri balansın saxlanması yalnız inkişafın yeni ekoloji təhlükəsiz və iqtisadi baxımdan optimal modelinin - davamlı inkişafın formalaşdırılması hesabına ola bilər.

Hər bir ölkənin özünəməxsus ətraf mühit strategiyası və siyasət xətti olsa da, qlobal məqsədlər insanların sağlam mühitdə yaşamasının təmin edilməsi, cəmiyyətin sahib olduğu ətraf mühit dəyərlərinin qorunması və inkişafı, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətlənmişdir.

Ərazisinin 12 faizi meşə örtüyündən ibarət olan, 10,3 faizi isə xüsusi mühafizə olunan (ölkəmizdə 10 milli park, 10 təbiət qoruğu və 24 təbiət yasaqlığı var) Azərbaycan son illər sosial və iqtisadi inkişaf sahələrində kifayət qədər nailiyyətlər qazanmışdır və bu nailiyyətlərin dayanıqlı olması əsas prioritet kimi qəbul edilmişdir. Ölkəmizdə ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, o cümlədən ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönələn tədbirlər Azərbaycanın dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Ekoloji təhlükəsizliyin təmin olunması üçün ətraf mühitin çirklənməsinin minimuma endirilməsi və mühafizəsinin təkmilləşdirilməsi, indiki və gələcək nəsillərin tələbatını ödəmək üçün təbii sərvətlərdən səmərəli istifadə, alternativ enerji mənbələrindən yararlanmaq və enerji effektivliyinə nail olmaq, qlobal ekoloji problemlər üzrə milli səviyyədə tələbatların qiymətləndirilməsi, həlli yollarının müəyyənləşdirilməsi, beynəlxalq təşkilatlarla əlaqələrin genişləndirilməsi ölkəmizin ekoloji siyasətinin əsas istiqamətləridir. Azərbaycanın ekoloji strategiyası, ətraf mühitin qorunması sahəsində fəaliyyətin koordinasiyasının gücləndirilməsi yolu ilə milli, beynəlxalq və regional səviyyələrdə təbii ehtiyatların mühafizəsi, elmə əsaslanan inkişaf prinsiplərinin tətbiqi iqtisadi və insan resurslarının istifadəsində davamlılığın təminatına yönəlmişdir.

Azərbaycanda hələ 2003-cü ildə ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişaf üzrə Milli Proqram qəbul edilmişdir. Minilliyin inkişaf məqsədlərindən biri olan ətraf mühitin davamlılığını təmin etmək üzrə fəaliyyət planına əsasən davamlı inkişaf prinsipləri dövlət siyasəti və proqramlarına daxil olunmuşdur.

Müasir dövrdə enerji təhlükəsizliyi və ətraf mühitin çirklənməsi, qlobal iqlim dəyişmələri bəşəriyyəti rahatsız edən əsas problemlərdəndir. Problemlərin həlli istiqamətində alimlər və mütəxəssislər tərəfindən müxtəlif fikirlər yürüdülür ki, onlardan da bu gün üçün ən önəmlisi alternativ və bərpa olunan enerji mənbələrindən istifadədir.

Bütün dövlətlər özlərinin yanacaq-enerji balansına yeni enerji mənbələrinin cəlb edilməsinə çalışırlar. Bu yarışda külək, günəş, biokütlə, dalğa, qabarma-çəkilmə, kiçik çayların hidroloji enerjisi kimi qeyri-ənənəvi enerji mənbələri xüsusi yer tutur. Bu tip alternativ enerji mənbələrinin potensial imkanları sonsuzdur və onların ekoloji səmərəliliyi heç kəsdə şübhə doğurmur.

Ölkəmizdə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə böyük yer verilir. "Yaşıl iqtisadiyyat"a sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir.

Azərbaycan qlobal iqlim dəyişmələrini bəşəriyyətin üzləşdiyi ən çətin problemlərdən biri hesab edir və bu problemin qarşısının alınmasına yönələn birgə səyləri daim dəstəkləyir.

## Sahibkarlar turizm mövsümünə hazırlaşırlar

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə müvafiq dövlət qurumlarının və turizm sahəsində fəaliyyət göstərən 30-dan çox sahibkarlıq subyektinin iştirakı ilə görüş keçirilib.

İqtisadiyyat, Xarici İşlər nazirliklərinin, Dövlət Miqrasiya, Dövlət Sərhəd xidmətlərinin, Dövlət Turizm Agentliyinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, "Azərbaycan Hava Yolları" QSC-nin, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Turizm və xidmət üzrə iş komissiyasının və Azərbaycan Turizm Assosiasiyasının nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbirdə sahibkarların fikirləri dinlənilib, sahənin inkişafına dair müxtəlif təkliflər səsləndirilib.

Görüşdə turizm sahəsində fəaliyyət göstərən şirkətlərin nümayəndələri tərəfindən vahid turizm reyestrinin yaradılması, turizm sahəsində qanunvericiliyin müasir tələblərə uyğunlaşdırılması, hava daşımaları, otel və restoranlarda xidmət səviyyəsi, 2-3 ulduzlu otellərin tikintisi və bunun üçün aşağı faizli kreditlərin ayrılması, kadr hazırlığı, bu sahədə qaynar xəttin yaradılması, bələdçilərə sertifikatların verilməsi, ölkəyə gələn turistlərin məlumatlandırılması və digər istiqamətlərdə müxtəlif təkliflər səsləndirilib, onları maraqlandıran suallar cavablandırılıb.

KOBİA-nın idarə heyəti sədrinin birinci müavini Natiq Həsənov qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan turizmin böyük potensiala malik olduğunu, turizm sahəsində xeyli sayda kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyət göstərdiyini qeyd edib. Bildirib ki, agentliyin təşkilatçılığı ilə mütəmadi olaraq dövlət və özəl qurumların iştirakı ilə iqtisadiyyatın müxtəlif sektorları üzrə görüşlər, digər tədbirlər keçirilir. Bu görüşlərin təşkilində məqsəd sahibkarlarla dövlət qurumları arasında səmərəli əməkdaşlığa nail olmaq, müxtəlif sahələr üzrə müzakirələr aparmaq, sahibkarların müvafiq sahənin inkişafı ilə bağlı fikir və təkliflərini öyrənməkdir. Belə görüşlərin müxtəlif sahələr üzrə davamlı olaraq keçirilməsi nəzərdə tutulur.

Görüş çərçivəsində, həmçinin aidiyyəti dövlət qurumlarının nümayəndələri sahibkarları turizm sahəsində yeniliklər, bu sahədə mövcud qanunvericilik və dəyişikliklər, dövlət dəstəyi tədbirləri barədə məlumatlandırıblar.

## Bakı Metropoliteni 17 generator alıb

"Bakı Metropoliteni" QSC üçün ümumi gücü 39 meqavat olan 17 ədəd generator alınıb. Bu barədə jurnalistlərə QSC-nin baş mühəndisi Əlixan Osmanov deyib.

Ə.Osmanovun sözlərinə görə, hazırda generatorların sazlama və quraşdırma işləri görülür: "Hazırda "Azərişıq"ın 215 saylı yarımstansiyasında 2 dizel generatoru quraşdırılıb. Hər bir generator 500 litr yanacaq tutur. Enerji tam kəsilən zaman genertorlar işə düşərək işıqlandırma, eskalatorların hərəkəti, su və havalandırma sisteminin işini təmin edəcək. Həmçinin bu generatorlar elektrik avadanlıqlarının minimal hərəkətini təmin edəcək. Yəni qatarlar daha tuneldə qalmayacaq".

## Mütaliə mədəniyyətdir

Bu o zamanlardı ki, kitab həyatımızın ayrılmaz hissəsi idi. Evimizin ən munis guşəsində düzəltdiyimiz rəflərə kitablarımızı boyuna, həcminə, rənginə, illərinə uyğun sıralayıb düzərdik. Hər gün rəflərin, kitabların tozu alınardı. Yerlərini dəyişməyə isə heç kimin ixtiyarı olmazdı... O qədər də yüksək olmayan aylıq məvacibimizdən kitab üçün də müəyyən məbləğ ayırıb qoyardıq kənara. Yeni kitab çap olunan kimi də alıb, oxumağa tələsərdik. Üstəlik, paytaxtdan tapa bilmədiyimiz yeni nəşrləri Moskvadan da sifariş edərdik. Bəlkə indi də əksəriyyətimizin evində o vaxt aldığımız ensiklopediyanın bütün cildləri qalır...

Bu o zamanlardı ki, rayon, kənd kitabxanalarında bir kitabı oxumaq üçün günlərlə, həftələrlə növbə gözləməli olurdun. Vay o haldan ki, tanışın o kitabı səndən qabaq oxuyub qürrələnəydi. Uduzmuş oyunçu kimi "niyə mən birinci olmadım", - deyə için-için yeyərdi. Belə bir oxumaq rəqabəti aparırdıq aramızda gizlincə...

Bu o zamanlardı ki, gecə kitab oxumadan yuxuya getməzdik. Hətta işıqlar sönəndə belə, şam, lampa işığında oxumağa davam edərdik. Və o qaranlıqda oxunan əsər bizə daha mistik, daha təsirli, daha sehrli görünərdi. Bir ayrı zövq alardıq, bir başqa həzz yaşayırdıq... Belə bir aclıq vardı kitablara qarşı içimizdə...

Bir də "qadağan olunmuş" əsərlər vardı bizim üçün. Yaşımıza uyğun olmadığı üçün böyüklərimiz o kitabı açıb səhifələrini vərəqləməyə də icazə verməzdilər. Amma öyrənmək, oxumaq təşnəsi, kitab ehtirası o qədər güclü olardı ki, qadağalarla da qarşısı alına bilməzdi. Fürsət tapıb böyüklərdən gizlin, küncdə-bucaqda o əsəri mütləq oxuyardıq...

Bu gün isə... Etiraf edək ki, çoxumuz övladımıza, nəvəmizə kitabı məcburən, zorla, telefon, planşet, kompüter qadağası ilə təhdid edərək oxuduruq. Axı niyə müasir gənclərin mütaliəyə marağı, sevgisi əvvəlki kimi deyil? Oxucularda kitaba olan şövqün sönük olması nə ilə bağlıdır? Azərbaycanı oxucular ölkəsinə çevirmək üçün nə etmək lazımdır? Ədəbiyyatımızın bugünkü mənzərəsinə yazıçılarımızın gözü ilə baxaq.

# Oxucular ölkəsinə çevrilmək üçün nə edək?







### "Bu gün kitab transformasiyaya uğrayır"

İlk həmsöhbətimiz **xalq yazıçısı Elçin**dir. Deyir ki, "Mən bütün həyatım boyu oxumuşam və bu yaşa gəlib çatmışam, ancaq indi baxıb görürəm ki, sən demə, az qala, heç nə oxumamışam". Ona görə də heç bir ölkədə və heç bir vaxt kitab oxuyanın sayı qənaətedici ola bilməz, çünki bəşəri ədəbiyyat elə bir məqama gəlib çıxıb ki, dibi görünməyən bir dəryadır: "Kitaba marağın azalması bütün postsovet məkanını ehtiva edir və bu, əlbəttə, bizim üçün təskinlik deyil, ancaq faktdır. Bir müddət əvvəl Moskvada nəşr olunan "Literaturnaya qazeta"da oxudum ki, hətta Çin kimi sürətlə inkişaf edən (və oxuyan!) bir ölkənin belə, məşhur ədəbiyyatşünas professoru 20-30 il bundan əvvəlkinə nisbətən kitaba marağın azalmasından şikayət edir. Başqa bir məsələ də var ki, biz istəsək də, istəməsək də, bu gün kitab transformasiyaya uğrayır, yəni klassik kitab öz formasını dəyişir. Artıq elektron kitab mütaliəsi sürətlə inkişaf edir və bu, hələ "oxuyanlar" statistikasına düşmür. Mən rəflərə düzülmüş kitabları sevən bir oxucu kimi belə bir transformasiyaya heç vəchlə alışa və bununla barışa bilmirəm. Ancaq bu, nə məndən, nə səndən, nə də bir başqasından asılıdır. Bu dəyişmə prosesi - dövrün, zamanın sifarişidir".

Xalq yazıçısı söyləyir ki, bu gün ədəbiyyatımızda istedadlı gənclər var, yazırlar, özü də yaxşı yazırlar. Xüsusən poeziyamızda. Lakin onları "ədəbi nəsil" adlandırmaq olmur: "Doğrusunu deyim ki, həm say, həm də bədii-estetik yeni söz baxımından ədəbi nəsil siqlətini, sanbalını mən, təəssüf ki, görmürəm. "Ədəbi nəsil" anlayışı - fərdi yox, bu fərdiliklə bərabər, estetik amalın birliyi, ümumiliyidir. "Ədəbi nəsil" - zaman kateqoriyasından artıq dərəcədə həmin amal birliyinin ifadəsidir. Bax, belə bir güclü ədəbi birliyi hələ ki, dediyim kimi, mən görmürəm".

Bəs bu gün yazıçı populyarlığını şərtləndirən əsas amillər hansılardır? Xalq yazıçısı Elçinin fikrincə, əgər populyarlıqla keyfiyyət üst-üstə düşürsə, bu yerdə əsas amil istedaddır. Yox, əgər populyarlıq bəsit "məhəbbət gözyaşları", yalançı "millət qəhrəmanlığı", ucuz çılpaqlıq və s. sayəsində yaranırsa, bu yerdə artıq həmin əsas amil istedadsızlıqdır: "Buna görə də populyarlıq həmişə sənətin göstəricisi deyil. Puşkinin zamanında Vladimir Benediktov ondan populyar şair idi, indi hardadır? Sovet dönəmində ən populyar dramaturqlardan biri, 40-50-ci illərdə bəlkə də birincisi 5-6 dəfə Stalin mükafatı almış Aleksandr Korneyçuq idi, yaxud ən populyar ssenariçilərdən biri Georgi Mdivani idi, yaxud da ən populyar nasirlərdən biri Semyon Babayevski idi, indi onları mütəxəssis sovetşünaslardan başqa heç kim tanımır".

### "Kitab oxumaq istəyirik, amma pul verib almaq yox"

Azərbaycanda əsərləri ən çox oxunan və satılan yazıçı, **detektiv roman ustası Elxan Elatlı** oxucularının sayından razıdır. Deyir ki, ölkəmizdə oxumağa meyil var, sadəcə nədənsə pul verib kitab almaq istəmirlər: "Azərbaycan müstəqillik qazanandan sonra azı 10 il kitab oxunmadı və satılmadı. 2000-ci illərdə yavaş-yavaş maraq yarandı. Metrolarda Azərbaycan dilində kitablar görünməyə başladı. Elə o vaxtlar kitablarım sürətlə satılıb yayıldı. Metrolarda satışın ləğvi isə oxucuların da azalmasına təsir etdi. Sevindiricidir ki, son vaxtlar kitab evlərinin sayı artır. Bu, kitaba marağın da getdikcə çoxalmasına səbəb olur. Burda orta məktəblərdəki ədəbiyyat müəllimlərinin də üzərinə iş düşür. Əvvəl sinifdənxaric oxu saatları var idi. İndi də şagirdi kitab oxumağa məcbur etmək lazımdır. Bu, onların xeyrinədir, nəinki ziyanına. İstəsək, oxucu sayını 2-3 dəfə artıra bilərik. Ümumilikdə isə mən oxucularımdan narazı deyiləm. Sadəcə olaraq oxucu sayı ilə kitabın satış sayı fərqlidir. Yəni kitabı oxumaq istəyirik, amma almaq yox! Səbəbi mənə hələ də aydın deyil! Desəm ki, bu, maliyyə ilə əlaqədardır, o da deyil. Dəfələrlə olub mənə restoranda bahalı qonaqlıq veriblər. Ancaq kitabımın imza günündə həmin şəxslərə demişəm 200 manatlıq kitab alın, tələbələr pulsuz aparsın, almayıblar. Halbuki mənə bu lazımdır, qonaqlıq yox".

### "Son vaxtlar yazanda maliyyəni düşünməyə məcbur oluram"

Yazıçı müasir oxucunun ədəbiyyatdan nə istədiyini, tələblərini deməyə çətinlik çəkir. Ancaq hesab edir ki, oxucu əlinə aldığı əsərdə səmimiyyəti, aldanmamağı, özlərini, ətraflarını görmək istəyir. Qısası, doğma ədəbiyyat istəyir: "Mən romanlarımda bunları verməyə çalışıram. Bəlkə elə ona görə də oxunuram. Düzdür, çox vaxt əsərlərimi "qeyri-ciddi ədəbiyyat" adlandırırlar. Bəli, mən sadə yazıram. Əslində bunun özü də çətindir. Uzun illər riyaziyyat müəllimi işləmişəm. Müəllim kimi də sevilmişəm, çünki riyaziyyat kimi çətin fənni şagirdlərə sadə dillə izah edə bilmişəm. Əgər müəllim bir fənni özü yüz faiz tam anlayırsa, sadə dilə çevirib danışa bilir. Anlamırsa, kitabdan oxuduğunu əzbər danışır. Bəzən insanlar aldanırlar, kitab cümləsi ilə danışanı dərin adam hesab edirlər. Ədəbiyyat da sadə olmalıdır. Son 20 ildə həyat ritmimiz çox dəyişib. Bu gün məktublar internet üzərindən yazılır. Hətta gənclərin "salam", "necəsən" sözlərini tam yazmağa da hövsələsi çatmır, saitləri ixtisar edir. Bu cür həyat ritmilə yaşayan gənclərə qəliz cümlələrlə, fəlsəfi yazılarla necə təsir etmək, kitab oxutmaq olar? Oxumurlar".

E.Elatlının sözlərinə görə, onun əsərləri ənənəvi detektivlərdən kəskin fərqlənir: "Tutaq ki, ciddi ədəbiyyat sayılanlar romanlarını hansısa qlobal məsələyə həsr edirlər. Əgər istədiklərinə nail olurlarsa, çox gözəl, mən də alqışlayıram. Yox, nail olmurlarsa, ondansa bir detektiv, ya məişət mövzusunda sadə roman yazıb müsbət cəhəti aşılaya bilsəilər, daha çox uğur qazanarlar. Bir də ki, mən bütün romanlarımda vətənpərvəliyə, böyüyə hörmətə, anaya məhəbbətə, milli birliyə və digər adət-ənənələrə yer verirəm. "Görünməyən izlər"də gəncləri narkomaniyadan uzaqlaşdırmağa çalışmışam, körpələri uşaq evlərinə verən analardan yazmışam. Bütün əsərlərim də mütləq xeyrin şər üzərində qələbəsi ilə bitir. Məgər bunlar qlobal məsələlər deyil?"

Detektiv romanlar müəllifi heç bir yerdə işləmədən və kənar gəliri olmadan əsərlərinin satışı ilə dolanan yeganə azərbaycanlı yazıçı olduğunu söyləyir. 24 kitabından 20-sini biznes marağı güdmədən yazdığını bildirir. Lakin etiraf edir ki, son vaxtlar biznes marağını da güdməyə məcburdur: "Bu vaxta qədər heç kəsə maliyyə, sponsorluq üçün ağız açmamışam. Ümumiyyətlə, kiminsə borcu da deyil yazıçıya maddi yardım göstərsin. Yazıçısansa, yazdığın az da olsa satılacaq, pul gətirəcək. Satılmırsa, ümid etmək də düz deyil ki, gələcəkdə satılacaq. Çünki 10 il sonranı proqnoz etmək mümkün deyil, oxucu sabah nə istəyəcək bilinmir. Əvvəllər kitablarım sürətlə satılırdı, nəşriyyat da pulu mütəmadi verirdi. Üstəlik, əvvəlki kitablarımı da yenidən nəşr edirdi. İki ildir "Teas press" nəşriyyatı əlyazmamı alıb, pulu banka köçürdür. İldə iki kitab yazıram. Hərdən düşünürəm, o məbləği mənə hansısa təşkilat versə, 2 dəfə güvvətli əsər yazaram, çünki tələsmərəm. Lakin son vaxtlar artıq maliyyəni düşünməyə məcbur oluram. Xarici ölkələrdə bir romanın satış pulu ilə yazıçı illərlə dolanır. Onunla müqayisədə bizdə məbləğ, əlbəttə, çox aşağıdır. Amma fəxr edirəm ki, yalnız kitablarımla dolanıram".

### "Biz haçan zövqsüz dediyimiz insanlara zövqlü əsərləri təbliğ etdik?"

Xeyli vaxtdır Türkiyədə yaşayan **gənc şair Aqşin Yenisey** ilk olaraq qardaş ölkədən Azərbaycan ədəbiyyatının bugünkü mənzərəsini təsvir etdi: "Hər nə qədər əyalət təsiri bağışlasaq da, ədəbiyyatımız, xüsusilə klassik ədəbiyyatımız vəziyyətimizi xeyli yaxşılaşdırır. Rus ədəbiyyatına yaxınlıq son dövr ədəbi əsərlərimizin görkəmini xeyli ciddiləşdirir. Türkiyə yazıçı və şairlərinin heyranlıqla baxdığı rus ədəbiyyatını biz demək olar ki, öz ədəbi mətnlərimizin içində əritmişik. Amma ədəbiyyatımız uzun illər sovet təsiri altında olduğu üçün peşəkarlığına xeyli ziyan dəyib. Peşəkarlıq baxımından türk yazarları bu gün bizdən üstündür. Bu da onların Qərb ədəbiyyatı ilə birbaşa təmasının olmasıdır. Bizə bu azadlıq uzun illər verilməyib. İkinci bir məsələ tərcümə və kitab çapı məsələsidir ki, biz bu işdə yubanırıq. Düzdür, son zamanlar naşirlər dünyada yeni nəşr olunan kitabların tərcüməsinə və çapına can atırlar, amma bu, hələ başlanğıcdır. Xüsusilə dünya müəlliflərinin ikinci, üçüncü dildən deyil, öz dillərindən tərcüməsi bizdə yeni istiqamətdir. Alqışa layiqdir. Oxucuların ədəbiyyata münasibətinə gəlincə, demək olar ki, eyni mənzərədir, hətta say etibarı ilə Azərbaycan oxucusu daha çoxdur. 80 milyonluq ölkə üçün ədəbi nəşrlərin və kitabların tirajı çox aşağıdır Türkiyədə. Bir balaca maraq oyadılsa, Azərbaycanı oxucular ölkəsinə çevirmək elə də çətin məsələ deyil, çünki bizdə orta təhsilin səviyyəsi Türkiyədən qat-qat yaxşıdır".

Bəs o marağı necə oyatmaq lazımdır? A.Yenisey hesab edir ki, ilk növbədə sənətlərarası əlaqəni bərpa etmək lazımdır. Rejissorlar, yazıçılar, aktyorlar, bəstəkarlar bir-birlərini tanımalı, bir-birləri ilə işləməyə can atmalıdırlar. İkinci məsələ kütləvi informasiya vasitələrinin diqqətini yeni yaranan əsərlərə, yeni çap olunan kitablara cəlb etmək və bunun ardıcıllığını qorumaqdır: "Televiziyalar kitaba ayıracaqları vaxtı ciblərinə dəyəcək ziyanla ölçməməlidir. Bilirsiniz, kütlə hər yerdə eyni xüsusiyyətlərə malikdir. Ona nəyi təbliğ edəcəksinizsə, ona oxşamağa çalışacaq. Bu gün Azərbaycanda hamı sosial şəbəkə istifadəçilərinin zövqündən şikayətlənir. "Niyə belə zövqsüz kütlə yetişib", - deyə hamı bu sual ətrafında fikirləşir. Biz haçan zövqsüz dediyimiz insanlara zövqlü əsərləri təbliğ etdik ki, onlar bizə inanmadılar? Modern çağın öz oyun qaydaları, təbliğat metodları var. Biz bundan yararlanmağın yollarını öyrənməliyik. İstedadlı, intellektual insanlarla işləməyə üstünlük verməliyik. Əgər bu dediklərimin bir qismini də olsa reallaşdıra bilsək, yüksək nəticələrə çatmaq elə də çətin deyil. Azərbaycanın intellektual potensialı buna imkan verir".

### "Oxucu ilə dil tapmaq üçün onun qapısına getmək lazım deyil"

Şairin qənaətincə, müasir oxucu ədəbiyyatda öz həyatının, ətrafında baş verənlərin bədii həllini axtarır, tarixə yeni gözlə baxmaq, intellektlə əyləncəni bir arada görmək istəyir. O, istəyir ki, özü ədəbiyyata deyil, ədəbiyyat ona vaxt ayırsın: "Oxucu siyasətdən, dindən umduğu kimi, sənətdən də bir şeylər umur. Zövqünün, yaddaşının yenilənməsinə maraqlıdır. Oxucu istəyir ki, sənət onu tanış olmadığı, həm də yaşadığının eynisi olmayan bir dünyaya aparsın, onu başqa bir dünyanın sakininə çevirsin. Təəssüf ki, bu gün yazıçı və şairlərimizin özlərinin həyatı oxucuların həyatından fərqlənmir, adamlar çox vaxt buna görə əsərlərlə maraqlanmırlar. Sənət adamları çox əlçatan olub, sanki sənətin sehri dağılıb. Müasir oxucu öz yazıçısından sehrbazlıq istəyir, intellektual, fəlsəfi, bədii, hətta həyati sehrbazlıq. Amma bu, o demək deyil ki, sənət oxucunun istəyinə, sifarişinə uyğun mövqe seçməlidir. Oxucu onsuz da öz həyatından daha maraqlı yaşadığı mətni gec-tez tapacaq. Oxucu ilə dil tapmaq üçün onun qapısına getmək lazım deyil. Bu gün yazıçı və şairlərimiz məhz oxucunun qapısına özləri getdikləri üçün onların yaradıcılığına maraq azdır. Mən yazıçı ilə oxucu arasında platonik sevginin tərəfdarıyam".

Yazıçıların qonorar probleminə də toxunan A.Yeniseyin fikrincə, əgər naşir hansısa yazıçının kitabından pul qazanacağını bilsə, istədiyi məbləği düşünmədən verər. Yazıçı da bilsə ki, kitabı satılacaq, özünə lazım olan məbləği rahatlıqla naşirdən alar: "Sistem dəyişib deyə bizdə naşirlər də hələ öz işlərini qura bilmirlər. Məsələn, Türkiyədə naşir əvvəlcə imzanın şöhrətinin üzərində işləyir, yəni istedadlı bildiyi bir və bir neçə müəllifə sərmayə yatırır, sonra onun kitablarını çap edib, qoyduğu pulun iki qatını götürür. Bizdə naşirlərin özlərinin maliyyələşdirdiyi bir ədəbi orqan, yaxud kitabşünaslar varmı? Bizdə naşirlərin sərmayə qoyduğu bir gənc müəllifi varmı? Yoxdur! Bunlar yoxdursa, demək, bazar da yoxdur! Məsələn, mən ədəbi istedad deyilən bir müftə sərvətə sahib olduğumu sübut etmək üçün iyirmi ildir özümü öldürürəm. Bir naşir varmı pul ayırıb, lap sifariş versin ki, bizim üçün filan mövzuda bir əsər yaz? Yoxdur! Bundan ikinci nəticəyə gəlmək olur - ya məndə istedad yerli-dibli yoxdur ki, heç kim maraqlanmır, ya da naşirlər müftə müəllif axtarır. Əgər biz bu işə bazar qanunları ilə yanaşmaq istəyiriksə və naşirin də, müəllifin də qazanmasına can atırıqsa, bazar qanunları ilə işləməyi öyrənməliyik. Pul qoymalıyıq ki, pul götürə bilək. Məsələn, dünya şöhrətli Orxan Pamuk da, Elif Şafak da ortabab yazıçılardır, amma naşirlər onları Nobel mükafatına qədər aparıb çıxara bilib, öz ciblərinin xeyrinə. Bu gün dünya ədəbiyyatında "at oynadan" onlarla müəllif var ki, istedad baxımından yel olub yanımızdan ötə bilməzlər, halbuki naşirlər təbliğat hesabına onları dünyada milyon tirajlarla satdırır. Yəni kitab bazarının özünəməxsus tələb-təklif qanunları yoxdur. Müəlliflərə sərmayə qoyulmasa, bu işin başqa çarəsi olmayacaq".

Nobel mükafatından söz düşmüşkən, Aqşin Yenisey Azərbaycan ədəbiyyatının təmsilçilərinin 118 yaşı olan bu mükafata hələ də layiq görülməməsinə fikir bildirib: "Hamı bilir ki, bu mükafat təkcə əsərin bədii keyfiyyətinə görə verilmir. Sözsüz, Nobel almış yazıçıların da arasında ədəbi nəhənglər var, amma bu o demək deyil ki, bizim ədəbiyyat, ümumiyyətlə, "Nobel"in ədəbi kriteriyalarına cavab vermir. Sadəcə, bizdə bu mükafata gedən yolda heç vaxt "tikinti-quruculuq" işləri aparılmayıb, ona görə də kökü öz neftimizin hesabına qoyulan mükafata əlimiz çatmır. Hərdən deyirlər ki, "Nobel"dən əvvəl Azərbaycan yazıçısı dünyanı fəth etməlidir, məncə, boş söhbətdir. Nə qədər ki biz ölkə olaraq Avropanın siyasi maraqlarının toqquşduğu bir məsələdə tərəf olmayacağıq, bizə o mükafat verilməyəcək və ədəbiyyatımız da bundan çox şey itirmir".

*Bunlar ədəbiyyatımızın bugünkü durumuna yazıçılarımızın yanaşmasıdır. Bəli, problemlər, çətinliklər çoxdur, təkliflər, fikirlər də eləcə. Bu sahənin biliciləri, peşəkarları, bütün kitabsevərlər bir araya gəlib problemləri müzakirə etsələr və əl-ələ verib, həlli istiqamətində konkret işlər görsələr, bəlkə biz də oxucular ölkəsinə çevrilə bilərik. Bax, o zaman övladımıza, nəvəmizə kitabı məcburən, zorla, telefon, planşet, kompüter qadağası ilə təhdid edərək oxutmağa ehtiyac da qalmayacaq. Özləri sevərək, həvəslə, maraqla, təhrik olunmadan əsl oxucu olacaqlar.*

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Girəvəbazların son hoqqaları və ictimaiyyətin qınağı

## Dünyanın müxtəlif ölkələrində 300-dən çox qurumda birləşən həmvətənlərimizin antimilli ünsürlərin hərəkətlərini pisləyən tədbirləri də xalqımızın vahid amal uğrunda birliyini əks etdirir

Dünya sivilizasiyasına mühüm töhfələr vermiş Azərbaycan xalqı tarixin sərt sınaqları üzündən ötən əsrin 90-cı illərinədək vahid ideologiya əsasında təməli qoyulan dövlətçilik ənənələrini formalaşdırmaqdan, milli mənafelər ətrafında birləşməkdən uzaq düşmüşdü.

1991-ci ilin oktyabrında müstəqilliyə nail olmuş Azərbaycanda cəmiyyətin parçalanma təhlükəsi, milli birlik və həmrəylik ideyalarının özünə yer tapmaması ciddi problemə, dövlətin inkişafını əngəlləyən amilə çevrilmişdi. Məhz bu səbəbdən 1993-cü ilin iyun ayınadək Azərbaycanda vətəndaş həmrəyliyi mövcud olmamış, cəmiyyətdəki qarşıdurmalar daha da kəskinləşərək siyasi böhrana gətirib çıxarmışdı.

1992-ci ildə dövlətə rəhbərlik edən naşı qüvvələr xarici siyasətin prioritet istiqamətlərindən biri kimi diaspor quruculuğuna diqqət yetirməmiş, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın Azərbaycan ilə əlaqələrinin genişləndirilməsi, problemlərin həllində onların potensialından istifadə edilməsinə etinasızlıq göstərmişlər. 1991-1993-cü illərdə müstəqil Azərbaycanın ideoloji-siyasi, təbliğat müstəvisində Ermənistana uduzması, bir-birinin ardınca baş verən ağır faciələri dünya ictimaiyyətinə vaxtında və obyektiv çatdıra bilməməsi məhz bu laqeydliyin nəticəsi kimi yaddaşlarda qalıb.

Ulu öndər Heydər Əliyevin Naxçıvan Ali Məclisinin sədri vəzifəsində olarkən dünya azərbaycanlılarına üz tutması, onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səsləməsi heç də təsadüfi deyildi. Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

Məhz ümummilli liderin yürütdüyü xarici siyasətlə müstəqil Azərbaycan tarixən müxtəlif ictimai-siyasi və mədəni proseslər nəticəsində dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçün fəxarət, mənəvi dayaq və güvənc yerinə çevrilmişdir. Azərbaycan dövləti bu gün dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil birgə qüvvə təşkil etmək səylərinə ciddi fikir verir. Ümummilli lider dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunması, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinin ətraflı müzakirəsinin zəruriliyini nəzərə alaraq 2001-ci il may ayının 23-də xüsusi sərəncam imzaladı. Həmin sərəncama uyğun olaraq, 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı soydaşlarımızın azərbaycançılıq ideyası ərtafında sıx birləşməklə təşkilatlanması baxımından tarixi əhəmiyyət daşıyır. Azərbaycanın beynəlxalq nüfuzunun daha da artırılması, müxtəlif ölkələrdə dilimizin, tariximizin, mədəniyyətimizin yüksək səviyyədə təbliği, Ermənistanın təcavüzkar siyasətinin ifşası, bədnam erməni lobbisinə qarşı sistemli və ardıcıl əkshücumun təşkili məsələləri qurultayın qarşıya qoyduğu başlıca vəzifələr idi.

2016-cı il iyun ayının 3-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayının rəsmi açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev diaspor təşkilatlarının fəaliyyətinə toxundu. Dövlət başçısı bildirdi ki, biz həmişə xaricdə yaşayan azərbaycanlıların həyatı, taleyi, işləri ilə maraqlanırıq. Çalışırıq ki, onlara öz dəstəyimizi verək. İstəyirik ki, onlar olduqları ölkələrdə rahat yaşasınlar, yaxşı mövqe tutsunlar. Onların yaxşı imkanları olsun və eyni zamanda, öz doğma Vətəninə də xidmət etsinlər.

Təəssüf ki, bu sahədə əldə edilən bütün uğurlarımıza baxmayaraq, dünyada vətənimizi və xalqımızı layiqincə təmsil edənlərlə yanaşı, Azərbaycanın regionda söz sahibinə çevrilməsindən xoflanan, inkişafına müxtəlif formada mane olmağa çalışan antiazərbaycançı şəbəkəyə vassallıq edənlər də tapılır, barmaqla sayılsalar da... Belələrinə el arasında "girəvəbazlar" deyirlər. Onlar hər cür hərəkətlərdən istifadə etməyi özlərinə rəva görür, mənəvi dəyərləri tapdalamaqdan belə çəkinmirlər. Məqsədləri, tapşırıqları yerinə yetirib, əvəzində qrant qoparmaqdır.

Hər dəfə ölkədə keçirilən beynəlxalq tədbirlər ərəfəsində ağaları onları fəallaşdırırlar. Azərbaycan Prezidentinin xarici səfərlərində "küçə mədəniyyətli" "mədəniyyətlilər"in hərəkətləri, təkcə, gülüş və ikrah doğursaydı nə vardı!

Əlbəttə, müxtəlif yollarla xarici ölkələrə üz tutub çirkin kampaniyalara cəlb olunan antimilli ünsürlərin əməlləri öz dövlətinə və xalqına qarşı xəyanətdən başqa bir şey deyil. Xarici antiazərbaycançı qüvvələr onların nəzarətində olan media və QHT şəbəkəsi vasitəsilə ölkəmizə qarşı çirkin kampaniya aparır, bununla öz maraqlarını təmin etməyə çalışırlar. May ayının 29-da Azərbaycanda keçiriləcək Avroliqanın final yarışları ilə əlaqədar təşkil edilən qarayaxma kampaniyası da köhnə ssenarinin yeni tərkib hissəsidir.

Radikal müxalifətin, daxildə və xaricdəki antimilli qrupların fəaliyyəti Azərbaycan ictimaiyyəti tərəfindən ifşa olunur, çünki xalq onların "siması"nı yaxşı tanıyır. Qarayaxma kampaniyası ilk dəfə deyil aparılır, cəmiyyət isə bunun sifarişli olduğunu yaxşı bilir.

Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində 300-dən çox birlik, cəmiyyət və assosiasiyasında birləşən həmvətənlərimizin onların anti-milli hərəkətlərini pisləyən tədbirləri də xalqımızın vahid amal uğrunda birliyini özündə əks etdirir. Azərbaycan ictimaiyyətinin qınaq obyektinə çevrilmiş belə ünsürlər heç vaxt xalqa və milli mənafeyə xidmətin nə olduğunu anlamazlar. Çünki onlar bu ali hisslərdən çox uzaqdırlar...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ermənistan yeni vətəndaş müharibəsi astanasındadır

## İşğalçı ölkədə repressiya maşını işə düşür

*Əvvəli 1-ci səh.*

Baş verənlər Ermənistan parlamentinin dünən keçirilən növbədənkənar iclasında da müzakirə predmeti olub. İclasda "İşıqlı Ermənistan" partiyasının sədri Edmon Marukyan bildirib ki, baş nazirin ölkədə məhkəmələr üzərində nəzarəti ələ almaq niyyəti qəbuledilməzdir. Amma görünən odur ki, Paşinyan da geri çəkilmək niyyətində deyil.

"Jamanak" qəzetinin yazdığına görə, Ermənistanda güc strukturlarına məhkəmə hakimlərinə istefa ərizəsi yazmaları ilə bağlı təzyiq göstərmələri tapşırılıb. Hakimlərə daşınan və daşınmaz əmlakları ilə bağlı təzyiq edilməsi nəzərdə tutulub: "Ancaq hakimlər də mal-mülklərini öz adlarına sənədləşdirəcək dərəcədə sadəlövh deyillər". Qəzetin yazdığına görə, Nikol Paşinyanın çağırışı əsasında könüllü olaraq tutduğu vəzifədən istefa verəcək bir neçə hakim tapmaq lazımdır.

Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsi də Nikol Paşinyanın məhkəmələrin giriş-çıxışını nəzarətə götürmək çağırışından narahatlığını ifadə edib. AŞPA Monitorinq Komitəsinin Ermənistan üzrə həmməruzəçiləri Yuliya Lovoşkina (Ukrayna) və Andrej Şirceljin (Sloveniya) yaydıqları bəyanatda məhkəmə orqanlarının qeyd-şərtsiz müstəqilliyi və siyasi aktorların müdaxiləsinin yolverilməz olduğu vurğulanıb: "Siyasi tərəfdaşlar qanunverici orqanlara təzyiq kimi qəbul edilə bilən fəaliyyət və bəyanatlardan uzaq durmalıdırlar".

"1-in.am" saytı Ermənistanda hadisələrin bundan sonra hansı istiqamətdə cərəyan edəcəyinə dair maraqlı yazı dərc edib. Qeyd olunur ki, Ermənistanda hadisələrin axarı burada ziddiyyət və qarşıdurmaların hələ yaxın perspektivdə sona çatmayacağını göstərir: "Baş nazir Nikol Paşinyan məhkəmənin Robert Koçaryan haqda qərarına sərt reaksiya verməklə Ermənistan inqilabının ikinci, ən önəmli mərhələsinə strat verildiyini bildirib. Görünür, baş nazir unudub ki, inqilabın ikinci mərhələsinin başlanmasına başqa xüsusda artıq start verilib. Bizə gerçəkliyə çevrilməkdən uzaq olan iqtisadi inqilab vəd edilib. Kənar adam Paşinyanın bəyanatları ilə tanış olarsa, təəssürat doğa bilər ki, bunun müəllifi ölkənin baş naziri deyil, inqilaba hazırlaşan müxalifət lideridir".

Məqalədə qeyd olunur ki, Paşinyanın qalmaqallı mövqeyi bu planda nikbinlik üçün heç bir xüsusi əsas yaratmır: "Qeyd etmək gərəkdir ki, ombudsman, parlament və parlamentdən kənar müxalifət əsasən baş nazir Nikol Paşinyanın qalmaqallı yazısı barədə bəyanatlarla çıxış edib. Ermənistan prezidenti Armen Sarkisyan Ermənistan baş nazirinin məhkəmələrə giriş-çıxışı bağlamaq çağırışına etiraz edib. Məhkəmə sisteminin islahatına istənilən təşəbbüs alqışlanır, ancaq birmənalıdır ki, bu, leqal yolla, Konstitusiyanın ruhu və nöqtəsinə, Ermənistanın götürdüyü beynəlxalq öhdəliklərə uyğun olmalıdır. Paşinyan öz komandasının qeyri-məhdud hakimiyyətindən yararlanmır. O da aydındır ki, Koçaryanın cinayət məsuliyyətinə çəkilməsində ümummilli konsensus var, amma bu məsələ yenə də leqal yolla tənzimlənməlidir, yəni hakimiyyət şərait yaratmalıdır ki, 1 mart işi üzrə normal məhkəmə istintaqı baş tutsun. Əks halda 1 mart işi legitimsizləşə bilər, nəticədə Paşinyan istər-istəməz Koçaryanı siyasi dustağa və müxalifətin liderinə çevirər. Bu, Robert Koçaryan üçün çox dəyərli hədiyyə olar".

Bütün bunlar bir daha Ermənistanda başlanan yeni anarxiyanın hələ uzun müddət davam edəcəyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## “Azərişıq” ASC Proqram təminatlarının satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1** İşə davamiyyət və giriş-çıxış nəzarəti proqram təminatının satın alınması - 400 manat

**LOT-2** Satınalma və sifarişlərin idarə olunmasının proqram təminatının satın alınması - 400 manat

**“Azərişıq” ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Əlaqələndirici şəxs - Qalib Həmidov (telefon: 440-39-93 daxili (22-07))**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **03 iyul 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **11 iyul 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2019-cu il saat 16:00-da** Ələsgər Qayıbov küçəsi, 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## “Azərişıq” ASC Abşeron rayonu ərazisində torpaq sahələrinin suvarma sisteminin və Xaçmaz rayonunun Müqtədir qəsəbəsi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1:** Abşeron rayonu ərazisində torpaq sahələrinin suvarma sisteminin xarici elektrik təchizatı işlərinin satın alınması - **400 manat**

**LOT-2:** Xaçmaz rayonunun Müqtədir qəsəbəsi ərazisində yerləşən aqroparkın xarici elektrik təchizatı işlərinin satın alınması - **400 manat**

**“Azərişıq” ASC**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

Əlaqələndirici şəxs - Aşəd Ağayev (telefon: 440-39-93; daxili (22-83))

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 iyun 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **25 iyun 2019-cu il saat 16:00-a** qədər Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 iyun 2019-cu il saat 16:00-da** Bakı şəhəri, Ələsgər Qayıbov küç., 8 ünvanında “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu Yevlax rayonunda keçiriləcək “Ət və süd məhsullarının istehsalı sahəsində mövcud vəziyyət və inkişaf perspektivləri”nə dair sərgi-konfrans tədbirinin təşkili işinin satın alınması üzrə kotirovka sorğusu elan edir.**

İddiaçılar kotirovka sorğusunun predmetinə dair hazırlanmış əsas şərtlər toplusunu İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondundan əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və 31 may 2019-cu il saat 12:00-a qədər qəbul olunur.

**Əlaqələndirici şəxs: Anar Əsgərov.**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şərifzadə küçəsi, 172.**
**Telefon: (012) 310-23-01**
**Fax: (012) 432-37-17**
**e-mail: info@edf.gov.az**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 30.04.2019-cu il tarixdə keçirilmiş “Qırmızı və yaşıl xətləri”ndə tikilmiş ventilyasiya şaxtalarında quraşdırılacaq səsboğucuların və onların şef-montaj işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə “Konven Service” MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 22.05.2019-cu il tarixdə ƏDV daxil 188 287,88 manat (yüz səksən səkkiz min iki yüz səksən yeddi manat, 88 qəpik) məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Poçt (kuryer) xidmətinin satın alınmasına dair kotirovka sorğusunun nəticələri barədə

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 22.04.2019-cu il tarixdə keçirilmiş poçt (kuryer) xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə “ARS Express” MMC 25488,00 (iyirmi beş min dörd yüz səksən səkkiz) manat məbləği ilə qalib elan olunmuşdur və qalib gəlmiş iştirakçı ilə 17 may 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər iştirakçılara təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti 223200 (Digər nəqliyyat xidmətləri) xərc maddəsi üzrə malların alınması ilə əlaqədar olaraq

## *kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 05.06.2019-cu il tarixə qədər Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin aşağıdakı ünvanına təqdim olunmalıdır:

**Əlaqələndirici şəxs: Rəşad Yusifov**
**Ünvan: Bakı şəhəri, Binəqədi rayonu 6-cı mkr., Mirmahmud Kazımovski küçəsi 134**
**Telefon: (012) 569-88-73**

***Tender komissiyası***

# Beynəlxalq aləm

## İndoneziya paytaxtında qanlı toqquşma

İndoneziyanın paytaxtı Cakartada polislə müxalifətin tərəfdarları arasında yenidən toqquşma olmuşdur. Bu barədə “Kompas” telekanalı xəbər verir.

Paytaxtın qərb hissəsində bir neçə min nümayişçi yolları və körpüləri bağlamış, sonra hüquq mühafizə orqanlarının əməkdaşlarını daşa basmışdır. Cavabında polis gözyaşardıcı qaz və təzyiqli su tətbiq etmişdir.

Cakarta qubernatoru Anis Basvedanın verdiyi məlumata görə, toqquşma nəticəsində azı 6 nəfər həlak olmuş, təxminən 200 nəfər yaralanmışdır. Öz növbəsində hüquq mühafizə orqanları-



nın rəsmi nümayəndəsi Dedi Prasetio bildirmişdir ki, mitinqlərdə qayda-qanunu təmin edən polis əməkdaşlarına odlu silah verilməmişdi.

Cakartada etiraz aksiyaları srağagün prezident seçkilərinin yekun nəticələri elan olunduqdan sonra başlamışdır. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, hazırkı dövlət başçısı Coko Vidodo 55,5 faiz, onun yeganə rəqibi, ehtiyatda olan general Prabovo Subianto 44,5 faiz səs toplamışlar. Müxalifətçi namizədin qərargahı bəyan etmişdi ki, nəticələrlə razı deyil və Konstitusiya Məhkəməsində iddia qaldırmaq niyyətindədir. Təxminən iki min müxalifətçi səsvermənin nəticələrinə yenidən baxmaq tələbi ilə küçələrə çıxmışdı.

## Səudiyyə Ərəbistanı aerodromuna PHA ilə hücum



Yəmənin “Ənsar Allah” (hövsilər) qiyamçı hərəkatının tərəfdarları Səudiyyə Ərəbistanının cənub-şərqində yerləşən Nəcran şəhərinin aerodromuna pilotsuz hava aparatları (PHA) ilə hücum etmişlər. Bu barədə “əl-Cəzirə” telekanalı xəbər verir.

“Ənsar Allah”ın nümayəndələri bildirmişlər ki, PHA-lar Səudiyyə Ərəbistanının döyüş təyyarələrinin yerləşdiyi anqarlara hücum etmişdir. Hövsilər aerodroma hücumun nəticələri barədə məlumat verməmişlər. Öz növbəsində Səudiyyə Ərəbistanı hakimiyyət orqanları Nəcrana havadan hücumu şərh etməmişdir.

Xatırladaq ki, Yəməndə hökumət qoşunları ilə qiyamçı hövsilər arasında qarşıdurma 2014-cü ilin avqustundan bəri davam edir. 2015-ci ilin martında Səudiyyə Ərəbistanının başçılıq etdiyi ərəb koalisiyası ölkədə vəziyyətə müdaxilə etdikdən sonra qarşıdurma aktiv mərhələyə keçmişdir.

## Ekstremistlər Suriya şəhərini ələ keçirdilər



“Şam Azadlıq Təşkilatı” qruplaşması Suriyanın Həma əyalətində Kəfr-Nabudə şəhərini hökumət qoşunlarının əlindən almışdır. Bu barədə “əl-Məsdər News” portalı xəbər verir.

Məlumata görə, ekstremistlərin hücumu nəticəsində hər iki tərəf çoxlu tələfat vermişdir. Silahlılar əvvəlcə geri çəkilmiş, sonra isə qüvvələrini yenidən cəmləşdirərək hökumət qoşunlarını şəhərdən vurub çıxarmışlar.

Suriyalı hərbçilər əks-hücuma keçmişlər və hazırda itirdikləri mövqeləri geri qaytarmağa çalışırlar. Portal qeyd edir ki, hökumət qoşunları yaşayış məntəqəsində möhkəmlənmək üçün strateji əhəmiyyət kəsb edən Təl-Səxr təpəsini ələ keçirməlidir. Hələliksə təpə ekstremistlərin nəzarəti altındadır.

## 46 il həbsdə qalmış günahsız amerikalı kompensasiya alacaq

ABŞ-ın Miçiqan ştatının hakimiyyət orqanları 46 il həbsxanada yatmış günahsız Riçard Fillipsə 1,5 milyon dollar məbləğində kompensasiya ödəyəcək. Bu barədə “CBS News” telekanalı xəbər verir.

Prokurorluq yalnız ikinci cəhddən sonra kompensasiyanın ödənilməsinə razılıq vermişdir. İndi sənədi ştatın qanunvericilik hakimiyyəti təsdiqləməlidir.

Fillips 1971-ci ildə adam öldürməyə görə məhkum olunmuş və ömürlük həbs cəzası almışdı. Uzun illərdən sonra məlum olmuşdur ki, amerikalı qətl cinayətində iştirak etməmiş və əsas şahid ona



qarşı yalan ifadə vermişdir. Hüquq müdafiəçiləri bundan xəbər tutan kimi cinayət işinə yenidən baxmaq xahişi ilə prokurorluğa müraciət etmişdilər. Müstəntiqlər Fillipsin günahını sübut edən dəlillər tapmamış və ötən ilin martında ona tam bəraət vermişdilər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə bacısı

**ELZA FƏRƏCOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Elm və təhsil komitəsinin sədri, akademik İsa Həbibbəyli, komitənin üzvləri və əməkdaşları Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin İdarə Heyətinin sədr müavini Hüsnü Quliyevə əzizi

**XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

TuranBank ASC-nin Müşahidə Şurası və İdarə Heyəti bankın İdarə Heyəti sədrinin müavini Orxan Qarayevə əmisi

**HÜMBƏT ŞAMİL OĞLU QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Milli Məclisin deputatı Vahid Əhmədova qardaşı

**RAMİZ ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tələbə yoldaşları Mohuma Heraçiyevə qayınatası

**ŞAMİL CƏBRAYIL OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1707
Qiyməti 40 qəpik